**Nahid Məmmədov**

# İŞĞAL ALTINDAKI TARİXİ-DİNİ ABİDƏLƏRİMİZ

BAKI – 2015

AZƏRBAYCAN RESPUBLİKASI
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİ

Ön sözün müəllifi: Mübariz Qurbanlı

Redaktor: Gündüz İsmayılov

**Nahid Məmmədov.**
**İŞĞAL ALTINDAKI TARİXİ-DİNİ ABİDƏLƏRİMİZ**

Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 96 səh.

ISBN: 978 - 9952 - 490 - 95 - 4

© N.Məmmədov, 2015

# ÖN SÖZ

İki əsrdən artıqdır Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minillərlə ölçülən tarixi mədəni abidələrimiz, müqəddəs ocaqlarımız və məbədlərimizdir. Bu gün tarixən erməni təcavüzünün qurbanı olmuş dini-mədəni abidələrimizin ümumi sayını müəyyənləşdirmək və onlar barədə tam məlumat toplamaq qeyri-mümkündür. Çünki XIX əsrdən etibarən Qarabağa və Qərbi Azərbaycan ərazilərinə köçürülən ermənilər müxtəlif vaxtlarda, amma mərhələ-mərhələ öncə azərbaycanlıların torpaqlarını, sonra da orada yaşayan soydaşlarımızı, daha sonra abidələrimizi təcavüzə məruz qoymuşlar. XX əsrin əvvəllərində, 1905, 1918-ci illərdə bu təcavüz aktiv fazada aparılmış, nəhayət, 1988-ci ildən etibarən kulminasiya nöqtəsinə çatmışdır. Tarixi abidələr xalqın keçmişinə işıq tutan, onun yaddaşını həmişə təzə saxlayan, canlı arxivdirlər. Tarixi-dini abidələr isə xalqın təkcə tarixi deyil, həm də mənəvi, ruhani yaddaşını hifz edən müqəddəs məkanlardır. Bu baxımdan ermənilərin tarixi-mədəni abidələri, o cümlədən məbədlərimizi məhv etmələri başadüşüləndir. Onlar bu yolla bizim minilliklər ərzində yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək istəyirlər.

1993-cü ildə xalqın ən çətin günündə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev bu siyasəti çox yaxşı anlayır, ermənilərin azərbaycanlılara qarşı törətdikləri işğalçılıq, deportasiya və soyqırımı faktlarını dünyaya bəyan edirdi. 1997-ci il dekabrın 18-də Ulu Öndər "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərman imzaladı. Fərmanda deyilir: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma, tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

Fərmanda SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı və 1948-ci il 10 mart tarixli 754 saylı qərarlarına toxunulur və bu qərarların Azərbaycan xalqına qarşı tarixi cinayət aktı kimi dəyərləndirilir. Heydər Əliyev 1948-1953-cü illər ərzində 150 mindən çox azərbaycanlının Ermənistan SSR ərazisindəki doğma yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün edilməsini, genosidə məruz qalmasını qətiyyətlə pisləyirdi.

Ulu Öndər bu məsələdə faydası ola biləcək hər kəsin, xüsusilə tarixçilərin, elmi ictimaiyyətin səfərbər olmasını, xaqımızın başına gətirilmiş soy-

qırımı, deportasiya və işğalçılıq faktlarını dəqiq tədqiq edib dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədi ilə Dövlət Komissiyasının yaradılması vacibliyini bildirirdi: "Təəssüflər olsun ki, biz tarixin müxtəlif mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana təcavüz edibdir".

Daha sonra münaqişənin həlli üçün böyük fədakarlıq nümayiş etdirən Umummilli Lider Heydər Əliyev diqqəti bir daha ermənilərin təcavüzkar siyasətinə və qanlı cinayətlərinə cəlb edərək 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzaladı. Fərmanda deyilirdi: "1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi".

Fərman ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı siyasətinin tarixi xronikasını, səbəblərini və mahiyyətini açıqlayırdı. Ulu Öldər bu Fərmanla dünyanın bir daha dönüb tarixi həqiqətlərə açıq gözlə baxmasını, qərəzi, təəsübkeşliyi, ikili standartları kənara qoymasını tələb edirdi. Fərmanda ümumiləşdirilərək 31 mart azərbaycanlıların soyqırımı günü kimi qəbul edildi.

Əfsuslar olsun ki, hələ də dünya birliyinin qətiyyətsizliyi və Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində danışıqlar prosesi uzanır. Problemin həllini tapmaması Dağlıq Qarabağ və işğal altındakı ətraf rayonlarda Azərbaycanın tarixi mədəni irsinə qarşı təcavüzün getdikcə geniş vüsət alması ilə müşayət olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"na əsasən işğal olunmuş ərazilərdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı **900-**dən çoxdur. Heç şübhəsiz ki, bu siyahıya alınmayan, lakin əzəli torpağımız Qarabağdakı varlığımızın, milli kimliyimizin maddi sübutları olan minlərlə tarixi abidəmiz, dəyərimiz vardır. Bəzi məlumatlara görə dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır, qəbiristanlıqların sayı 900-dən artıqdır. Qarabağda tarixi-dini abidələrlə yanaşı, yüzlərlə mədəniyyət abidəmiz – kitabxanaları-

mız, muzeylərimiz, mədəni irsimiz də təcavüzə məruz qalıb. Bütün bu vəhşiliklərə, işğal altında qalan torpaqlarımızdakı insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan və separatçı Dağlıq Qaradağ rejimi məsuliyyət daşıyır.

İşğal altındakı torpaqlarımızda tərəfimizdən təsbit olunmuş tarixi-dini abidələrin təqribi sayı **403**-dür. Onlardan 67-si məscidlər, 144-ü məbədlər,[1] 192-i ziyarətgahlardır.[2]

Ermənilərin tarixi-dini abidələrimizə qarşı vandal təcavüzü müxtəlif istiqamətlərdə aparılır. Milli mənsubiyyəti və qədim tarixi milli, dini ənənəni özündə ehtiva edən abidələr tamami ilə uçurulur. Bu abidələrin erməniləşdirilməsinə, özgələşdirilib dəyişdirilməsinə cəhd edilir. İşğal altındakı müsəlman dini kimliyinə aid olan abidələr, o cümlədən digər mədəniyyət göstəriciləri dağıdılır, təhqir olunur. Son illərdə məscidlərdə mal-qara və digər heyvanların saxlanılması faktı Qərb ölkələrinin fotomüxbirləri tərəfindən də lentə alınmış və bütün dünya ictimaiyyəti bu kadrlarla tanış olmuşdur. Ən ağırı odur ki, tarixi Alban məbədləri erməniləşdirilib qriqoryanlaşdırılır.

Məsələn, erməni təcavüzünə məruz qalmış istər İslam, istərsə də Alban irsinə dair tarixi-dini abidələrdən İrəvan "Şah Abbas" məscidi, "Buğakar" ziyarətgahı, "Ağadədə" ziyarətgahı tamamilə uçurulub; İrəvan "Göy" məscidi, "Cəfərabad" türbəsi özgələşdirilib-dəyişdirilib; "Yuxarı Gövhər Ağa" məscidi (Şuşa), "Aşağı Gövhər Ağa" məscidi (Şuşa), "Saatlı məscidi" (Şuşa), Ağdam Cümə məscidi dağıdılaraq təhqir olunub; "Ağoğlan" məbədi, "Xudavəng" məbədi (Kəlbəcər rayonu), "Tatev" məbədi, "Gəncəsər" məbədi erməniləşdirilib-qriqoryanlaşdırılıb.

Dinşünaslarımızın qeyd etdiyini görə, ilahi dinlərin hər birində məbəd dağıtmaq böyük günah hesab edilir. Lakin görünən odur ki, ermənilər Tanrı məbədlərini dağıtmaqla xristian ehkamlarını da pozmaqdan çəkinmirlər. İncildə bu barədə deyilir: "Kim Allahın məbədini məhv edirsə, Allah onu məhv edəcək, çünki Allahın məbədi müqəddəsdir…" (İncil, Korinflilərə I məktub, 3/17).

Eyni zamanda, Qurani-Kərimdə də buyurulur: "Allahın məscidlərində Onun (Allahın) adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə (dağılmasına) çalışanlardan daha zalım kim ola bilər? Halbuki onlar oraya (məscidlərə) ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, axirətdə isə böyük əzab gözləyir!" (Qurani-Kərim, Bəqərə, 114).

Ermənilər işğal etdikləri ərazilərdəki qədim Azərbaycan abidələrini məhv edir, yerli toponimləri planlı şəkildə dəyişdirirlər. Onların vandal davranışları Beynəlxalq səviyyədə təsbit

[1] Alban irsinə aid kilsələr, sovmələr və monastırlar.
[2] Pirlər, türbələr, ocaqlar, məqbərələr.

olunmuş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyasının, “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasının, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Bütün cəhdlərinə baxmayaraq, ermənilər tarix yazısını dəyişdirə bilməyəcəklər. Çünki, gerçək tarix yalnız həqiqətdən keçir, həqiqət isə birdir: Qarabağ Azərbaycanın tarixi torpağı, ayrılmaz tərkib hissəsidir.

Təəssüf olsun ki, işğalçıların Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının 822 saylı, 853 saylı, 874 saylı, 884 saylı qətnamələrinə baxmayaraq, bu tələb elə kağız üzərində də qalır. BMT kimi nüfuzlu təşkilatın Qarabağ məsələsi ilə bağlı qəbul etdiyi qətnamələrin icrasız qalması Azərbaycana qarşı ikili standartlı siyasi münasibətin göstəricisidir.

Heç şübhəsiz ki, münaqişənin bu günədək uzanması təhlükəli vəziyyət yaradır. Bölgədə sülhün pozulması, müharibənin başlaması ATƏT-in söykəndiyi təməl prinsiplərinə ziddir, bütövlükdə, beynəlxalq aləmdə mövcud olan sülh və təhlükəsizliyin yaradılması istiqamətində atılan addımlara uyğun deyil. Ona görə də, beynəlxalq birlik Ermənistanın işğalçılıq siyasətinə son qoyulması istiqamətində ciddi addımlar atmalıdır.

Beynəlxalq hüququn norma və prinsipləri ərazi bütövlüyünü və suverenliyi ön plana çəkir. Ərazi bütövlüyü və suverenlik məsələsi də bu danışıqlarda Azərbaycan tərəfinin irəli sürdüyü başlıca fikirdir. O da məlumdur ki, danışıqlar zamanı erməni diplomatiyasının faktiki olaraq dalana dirəndiyini görürük. Dövlətimizin ədalətli, obyektiv mövqeyi qarşısında ermənilər hansısa başqa fikir ortaya qoya bilmir. Bütün hallarda Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı faktı göz önündədir və bunu inkar etmək mümkün deyil. Ona görə də, danışıqlar zamanı hələ ki, müəyyən nəticəyə gəlinməməsi məhz Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi ilə bağlıdır.

Ölkə başçısı cənab İlham Əliyev ərazi bütövlüyümüzün bərpası üçün fəal səy göstərir. O, hər zaman münaqişənin beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalı olduğunu bildirir. Cənab Prezidentimizin dediyi kimi bunun başqa yolu ola bilməz: “İkili standartlara son qoyulmalıdır. Ölkəmizin ərazi bütövlüyü başqa ölkələrin ərazi bütövlüyündən az əhəmiyyət daşımır. Əgər Qərb dünyası postsovet məkanında münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edirsə, bizim münaqişə də öz həllini bu prinsiplər üzərində tapmalıdır. Amma bizə gəldikdə görürsünüz ki, münasibət fərqlidir. Bu, riyakarlıqdır, ikili standartlardır, ədalətsizlikdir”.

Cənab Prezident keçirdiyi bütün görüşlərdə bu fikirləri açıq şəkildə səsləndirir. Tərəf müqabillərindən bu riyakarlığa, ikili standartlara son qoyulmasını tələb edir.

Prezident İlham Əliyevin 10 aprel 2015-ci il tarixində Nazirlər Kabinetinin iclasında söylədiyi fikirlər çox əhəmiyyətlidir. O, münaqişənin uzanmasından danışarkən Qarabağın əzəli Azərbaycan torpağı olmasını sübut edən bir məqama toxundu: "Mən bunu dəfələrlə demişəm, bizim cəmiyyətimiz, xüsusilə gənc nəsil heç vaxt unutmamalıdır ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulub. Bu, bizim tarixi dədə-baba torpaqlarımızdır. Bütün toponimlər Azərbaycan mənşəlidir. Bunu bilmək üçün XX əsrin əvvəllərində çar Rusiyasında tərtib olunan xəritələrə baxmaq kifayətdir. Orada bir dənə də erməni toponimi tapmaq mümkün deyil. İndiki Ermənistanda bütün kəndlərin 80 faizi Azərbaycan mənşəli adlar daşıyır. Yəni, bu, bizim tarixi torpaqlarımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Başqa cür mümkün deyil. Bu, bizim strateji hədəfimizdir və biz bu hədəfə çatmaq üçün çalışırıq, çalışacağıq".

Bizim "hücum diplomatiyamız"ın içində işğal olunmuş torpaqlarımızda Ermənistanın törətdiyi vəhşiliklərin - tarixi, dini və mədəni abidələrə qarşı vandalizmi, terrorizmi dünya ictimaiyyətinə çatdırmaq əsas yerlərdən birini tutur. Bununla bağlı Azərbaycan dövləti, diaspor təşkilatları, o cümlədən Heydər Əliyev Fondu da böyük işlər görür. Tərtib olunan bu foto-kitabın da əsas məqsədi erməni vandalizmi barədə dünya ictimaiyyətini bir daha məlumatlandırmaqdır. Ümid edirik ki, tarixi Azərbaycan torpağı olan Qarabağdakı mədəni və mənəvi irsimiz barədə tutarlı mənbələrdən birinə çevriləcək bu kitab həqiqətin carçısı qismində də çıxış edə biləcəkdir.

***Mübariz Qurbanlı***
*Azərbaycan Respublikası*
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri*




# AĞDAM RAYONU

Ağdam rayonu 1930-cu ildə yaradılmışdır. Rayon Aran Qarabağla Dağlıq Qarabağın birləşdiyi ərazidə yerləşir. Ağcabədi, Bərdə, Tərtər, Ağdərə, Əsgəranla qonşudur. Ağdam rayonunun ərazisi 1150 kvadrat kilometr olub, 65 yaşayış məntəqəsini əhatə edir. Rayon ərazisinin 88%-i 1993-cü il iyul ayının 23-də ermənilər tərəfindən işğal edilmişdir.

XX əsrin 50-ci illərindən sonra aparılan tədqiqat işləri buranın qədim insanların yaşayış məskənlərindən olduğunu sübut etmişdir. Üçoğlantəpə adlanan ərazidə aparılan tədqiqatlar nəticəsində qədim insanların bu ərazidə Eneolit dövründə (e. ə. IV-VI minillik) məskunlaşmağa başladığı müəyyən edilmişdir.

Rayonun ərazisində aşağıda göstərilmiş siyahıya daxil etmədiyimiz qədim tarixə malik yüzlərlə memarlıq və incəsənət abidələri vardır. Buradakı tarixi memarlıq abidələri, yaşayış məskənləri, sərdabələr, kurqanlar və s. müxtəlif tarixi dövrləri əks etdirən nadir nümunələrdir. Rayonun onlarla tarixi yaşayış məskənləri Eneolit dövründən günümüzə kimi gəlib çatmışdır. Bu maddi-mənəvi abidələr müxtəlif bölgü əsasında qruplaşdırılmış və hər biri tarixə əsaslanaraq, "Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınılmaz mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü" adlı kitaba daxil edilmişdir. Eləcə də, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə dünya və ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına salınaraq inventarlaşdırılmışdır.

Tədqiqatçı alim Rəşid Göyüşov ərəblərin Azərbaycanı fəth etdikdən sonra İslamı ən son qəbul edən bölgənin Ağdam olduğunu qeyd etmişdir.

Xaçındərbətli kəndində 1314-cü ildə inşa edilmiş Qutlu Musa oğlu türbəsi, Kəngərli kəndində XIV əsrə aid türbə, Ağdam şəhərində XIX əsrdə memar Kərbəlayi Səfixan Qarabaği (1817-1910) tərəfindən inşa olunmuş məscid, Boyəhmədli kəndində dua edən insan şəklində daş heykəl, Çəmənli kəndində məşhur övliyalardan olan Seyid Lazım Ağanın məqbərəsi rayonun tarixi-dini abidələrinin zənginliyindən xəbər verən milli-mənəvi sərvətlərimizdəndir.

## AĞDAM CÜMƏ MƏSCİDİ
## *(AĞDAM ŞƏHƏRİ)*



**Ağdam Cümə məscidi 1868-1870-ci illərdə tikilmişdir. Memarı Kərbəlayi Səfixan Qarabaği olan məscid iki minarəli və ikimərtəbəlidir. Məscid binası daşdan, binanın fasad hissəsinin künclərindən qalxan minarələr isə kərpicdən hörülmüşdür.**

***

Mərkəz gümbəzə dayaq olan dörd sütun daxili məkanın həm tən ortasında kvadrat, həm də yan tərəflərdə iki mərtəbəli eyvanlar yaradır. İbadət zalına baxan və qadınlar üçün nəzərdə tutulan bu eyvanlar da öz növbəsində yuxarıdan gümbəzlərlə örtülür. Burada da az qala hər detalda İslam incəsənəti üçün mühüm olan mürəbbe (dördbucaqlı) və dairə münasibətlərinə rast gəlmək olar. İbadət zalı mehrabın kənarlarından və eyvanlardan açılan pəncərələrlə işıqlandırılır. Mehrab tağçasının üzərində binanın dekor tərtibini verən ustad Məhəmməd Nəqqaş Təbrizinin adı və təmir olunduğu il, hicri təqvimlə 1331-cü il (miladi 1913) tarixi həkk olunmuşdur. Mənbələrdə göstərilir ki, Ağdam Cümə məscidinin divarlarını ilkin variantda Kərbəlayi Səfixanın dostu nəqqaş Məhəmməd Şükuhi işləmişdir. Məscidin giriş qapısı Səfəvi memarlığı üçün xarakterik olan iri tağ portalın içindədir.

***

Memar Kərbəlayi Səfixan Qarabaği 1817-ci ildə doğulmuş, 1910-cu ildə vəfat etmişdir. Onun Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli şəhərlərində, eləcə də Ukraynanın Odessa və Türkmənistanın Aşqabad şəhərlərində ucaltdığı məscidlər bu gün də memarlıq nümunələri hesab olunur. Kərbəlayi Səfixan Qarabaği sayəsində "Qarabağ məscid memarlığı" adlı üslub formalaşmış və bu üslubu başqa heç bir digər üslublarla səhv salmaq mümkün deyil.

***

Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və Azərbaycan memarlığının incilərindən sayılan Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir. Məscidin

*Tədqiqatçı alim Rəşid Göyüşov ərəblərin Azərbaycanı fəth etdikdən sonra İslamı ən son qəbul edən bölgənin Ağdam olduğunu qeyd etmişdir.*



minarələri daxildən sökülmüş, tavanı bir neçə yerdən uçurulmuş, dizayn və yazıları pozulmuşdur. Abidə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02 avqust 2001-ci il tarixli 132 №-li qərarı ilə Ölkə əhəmiyyətli daşınmaz Tarix və Mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir.

Cümə məscidinin bugünkü vəziyyəti 1954-cü il qəbul edilmiş “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” Haaqa Konvensiyasının ermənilər tərəfindən pozulduğunu bir daha təsdiqləyir.







**Qutlu Musa türbəsi** və ya **Xaçındərbətli türbəsi**



*Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabə, onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Qutlunun məzarı üzərində tikildiyini göstərir.*

Kür-Araz çayları arasındakı inşaat, xüsusilə XIV əsrin başlanğıcında daş türbələrin geniş şəkildə yayılması ilə əlamətdardır. Bu abidələrdən biri nadir təsadüf edilən səciyyəyə malik türbədir.

Ağdam rayonunun Xaçındərbətli kəndində yerləşən bu abidə nisbətən alçaq bir kürsülük üzərində yüksələn səkkizbucaqlı piramidaşəkilli günbəzlə örtülüdür. Bu abidənin əsas məziyyəti onun həcmində deyil, bu ənənəvi quruluşun özünəməxsusluğundadır.

Xaçındərbətli abidəsində yeraltı hissənin varlığı onun qülləvari türbələr qrupuna daxil edilməsinə əsas verən başlıca bir əlamətdir.

Abidənin istər daxili səthlərinin, istər daxilindəki günbəzin və istərsə də xaricindəki səthlərin işlənməsi binaya təkrarolunmaz bir fərdi xüsusiyyət verir. Xaçındərbətli abidəsinin giriş qapısı üzərindəki kitabə, onun 1314-cü ildə ustad Şahbənzər tərəfindən Musa oğlu Qutlunun məzarı üzərində tikildiyini göstərir. Xaçındərbətli abidəsinin ən zəngin

hissəsini giriş səthinin memarlığı və onun daxili günbəzinin stalaktitli quruluşu təşkil edir. Xarici səthlər çox da dərin olmayan batıqlarla işlənmiş və bu batıqların yuxarı hissəsi tağlara bağlanmışdır.

Abidənin ümumi kompozisiya görünüşündə əhəmiyyətli bir ünsür də onun piramida şəkilli günbəzinin üzlüyünü təşkil edən daş tavalardan düzəldilmə örtükdür.

Xaçındərbətli abidəsinin giriş səthində və daxilində olan heyvan təsvirləri də son dərəcə diqqəti cəlb edir. Onların içərisində vəhşi heyvan təsvirləri xüsusilə qeyd olunmalıdır. Azərbaycan memarlığı abidələri içərisində bu təsvirləri xatırladan nümunələr Bakıda, Bayıl qalasının (XIII əsr) üzərində də var.

Xaçındərbətli abidəsinin daxili günbəzi Şirvan memarlığının daşdan oyma stalaktit kompozisiyalarını xatırladır.



*Viran edilmiş Ağdam şəhəri*

**Tarixi-dini abidələri**

- Məbəd (VI əsr) – Kəngərli kəndi
- Yegiş Arakel Məbədi (XII əsr) – Madaqiz kəndi (İNV № 4035)
- Ureq Məbədi (XII əsr) – Talış kəndinin qərbində (İNV № 4036)
- Məbəd (XIII əsr) – Tərtər çayının yuxarı axarında (İNV № 4038)
- Məbəd (XIII əsr) – Maqavuz kəndi (İNV № 4039)
- Kilsə (---) – Çerabert kəndi (İNV № 4040)
- Məbəd (VI-VIII əsrlər) – Şahbulaq kəndi
- Məbəd (XV əsr) – Maqsudlu kəndi (İNV № 4050)
- Məbəd (XVI əsr) – Salahlı-Kəngərli kəndi (İNV № 4053)
- Məscid (XIX-XX əsr) – Boyəhmədli kəndi (İNV № 4054)
- Məscid (XVIII əsr) – Qiyaslı kəndi (İNV № 4052)
- Məscid (XVIII əsr) - Papravənd kəndi (İNV № 4045)
- Məscid (XVIII əsr) - Papravənd kəndi (İNV № 4046)
- Məscid (1868-ci il) – Ağdam şəhəri

**Ziyarətgahları**





*Pənah xanın türbəsi (XIX əsr) – Ağdam şəhəri (İNV № 4027)*

- Qutlu Musa türbəsi (1314-cü il) – Xaçındərbətli kəndi
- Xanoğlu türbəsi (XVIII əsr) – Ağdam şəhəri (İNV № 4028)
- Türbə (XIX əsr) – Ağdam şəhəri (İNV № 4029)
- Türbə (XVIII əsr) – Papravənd kəndi (İNV № 4043)
- Şeyx Nigari türbəsi (XVIII əsr) – Papravənd kəndi (İNV № 4044)
- Türbə (XVIII əsr) – Maqsudlu kəndi (İNV № 4051)
- Türbə (XIV əsr) – Kəngərli kəndi (İNV № 4055)
- Türbə (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanlığında (İNV № 4056)
- Türbə (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanlığında (İNV № 4057)
- Uğrulla bəyin türbəsi (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanlığında (İNV № 4058)
- Türbə (XIX əsr) – Ağdam şəhərinin 5 km-də Qaraağac qəbiristanlığında (İNV № 4059)
- Qəbiristanlıq (orta əsrlər) – Papravənd kəndi (İNV № 5750)
- Qəbiristanlıq (orta əsrlər) – Qızıllı Kəngərli kəndi (İNV № 5751)
- Deşikli ocaq piri (ağac) – Qasımlı kəndi
- Eşq Abdal piri – Üçoğlan kəndi
- Əli pəncəsi (daş) – Yülbalı kəndi
- Seyid Manafın qəbri – Tağıbəyli kəndi
- Qara Piri ocağı – Papravəng kəndi
- Cındırlı piri – Kəngərli kəndi
- Seyid Lazım Ağanın məqbərəsi - Çəmənli kəndi
- Daş heykəl – Boyəhmədli kəndi
- Əli pəncəsi ziyarətgahı – Əliağalı kəndi

**Tarixi memarlıq abidələri**

- Pənah xanın imarəti (XVIII əsr) – Ağdam şəhəri (İNV № 4026)
- İki sandığabənzər abidə (XVI əsr) – Ağdam şəhəri
- İqamətgah (XVIII əsr) – Şahbulaq kəndi (İNV № 4047)
- Karvansara (XVIII əsr) – Şahbulaq kəndi (İNV № 4048)
- Bürc (XVIII əsr) – Şahbulaq kəndi (İNV № 4049)
- Sərdabə (XV əsr) – Ağdam şəhəri (İNV № 4030)
- Hatəm Məlik qalası (XII əsr) – Ağdam şəhəri (Qasapet kəndinin 5 km-də) (İNV № 4033)



*Xürşudbanu Natəvanın (Xan qızı) qəbirüstü abidəsi*









# AĞDƏRƏ RAYONU

Ağdərə rayonu 1930-cu ildə yaradılmışdır. Sahəsi 1705 kvadrat kilometr, əhalisi 44,4 min nəfər olmuşdur. Rayonda iki şəhər tipli qəsəbə, 60 kənd vardı (1977-ci ilin məlumatlarına əsasən). 10 sentyabr 1939-cu ilədək Cerabert, 1991-ci ilə qədər Mardakert, həmin tarixdən ləğv olunana kimi Ağdərə adlanmışdır. İnzibati mərkəzi Ağdərə şəhəri olub.

1992-ci ilin oktyabrında Azərbaycan hökumətinin qərarı ilə Ağdərə rayonunu ləğv edilərək, ərazisi Dağlıq Qarabağa aid olmayan üç rayon — Tərtər, Ağdam, Kəlbəcər rayonları arasında bölünmüşdür.

Rayon ərazisi 17 iyun 1993-cü ildə Ermənistan ordusu tərəfindən işğal olunub.

Ağdərədə İslam istiqamətli bir sıra abidələr mövcud olmuşdur. Bunların arasında ən çox yayılan pirlərdir. Rayon mərkəzindən 10 kilometr aralıda yerləşən "Ulduz təpə" piri bölgədə tanınan ziyarət yerlərindən olmuşdur.

Ağdərə rayonu da digər bölgələrimiz kimi tarixi-dini abidələrlə zəngindir. Bu ərazilərdə yerləşən bir çox abidələr barədə Ağdam və Kəlbəcər rayonlarından bəhs edərkən söhbət açılmışdır. Lakin onlardan Müqəddəs Yelisey məbədi barədə ətraflı məlumat verməyimiz daha məqsədəuyğun olacağını düşünürük.

*Rəvayətə görə, məbəd Qafqaz Albaniyasında xristianlığı ilk dəfə təbliğ etmiş Müqəddəs Yeliseyin şərəfinə tikilmişdir.*

## MÜQƏDDƏS YELİSEY MƏBƏDİ

Albaniyada xristianlığın yayılmasında böyük xidmətləri olmuş apostol Yeliseyin xatirəsinə ölkədə əsrlər boyu bir çox məbədlər tikilmişdir. Bunlardan bizim günədək gəlib çatanlardan biri də, Dağlıq Qarabağın Ağdərə rayonundakı Müqəddəs Yelisey monastır kompleksidir. Dəniz səviyyəsindən 2000 metr yüksəklikdə, uca bir dağın zirvəsində tikilmiş və qala divarları ilə əhatə olunmuş monastır kompleksinin əsası V əsrdə qoyulub. Xaçın knyazlığı dövründə burada geniş inşaat işləri aparılmış, böyük baş kilsə binası, altı kiçik kilsə, bir neçə yaşayış və təsərrüfat binaları tikilmişdir. Yaxşı yonulmuş daşdan tikilmiş baş kilsənin ikimailli daş damının üstündə dörd sütunlu ratonda ucalır. XIII-XIV əsrlərə aid edilən bu alban kilsəsi geniş ibadət zalından və silindrik tağbəndlərlə





tamamlanan sütunları olan kvadrat formalı otaqdan ibarətdir. Monastır kompleksində dəfələrlə yenidənqurma və inşaat işləri aparılmışdır.

Bu monastırda vaxtilə alban çarı III Vaçaqanın qəbri olub, sonradan ermənilər tərəfindən dağıdılıb, başqa yerlərə aparılımışdır.

Erkən orta əsr tarixçilərinin məlumatlarına görə, Albaniya hökmdarı Mömin III Vaçaqan kilsələrin tikintisinə böyük diqqət yetirirdi. Bir sıra iri tikililər onun adı ilə bağlıdır. Müqəddəs Yelisey monastır kompleksi bu tikililər arasında xüsusi yer tutur. Həmin kompleksin əsas binası bazilika tipinə aiddir. Rəvayətə görə, məbəd Qafqaz Albaniyasında xristianlığı ilk dəfə təbliğ etmiş Müqəddəs Yeliseyin şərəfinə tikilmişdir.

Moisey Kalankatlının əsərində Müqəddəs Yelisey məbədinin tikintisi haqqında məlumatlar vardır. Tarixçi, Müqəddəs Yeliseyin Albaniya hökmdarı III Vaçaqanın zamanında quru cəsədinin əldə olunması barədə danışaraq qeyd edir ki, *«müqəddəs Yeliseyin görkəminin meydana gəlməsi cəsəd qalıqlarının aparılmasını və lazım olan yerdə dəfn olunmasını zəruri etdi, müqəddəs ierey (keşiş) Stefan onun başını Urekan kəndində torpağa tapşırdı. Oradan quru cəsəd qalıqlarını müqəddəs Ners-Mihra qardaşlığına köçürdülər və bu yer indi Cirviştek adlanır».*

Güman etmək olar ki, əvvəllər burada müqəddəs Ners-Mihra qardaşlığının kilsəsi tikilmiş, kilsə onların adını daşımışdır. *«Uzun müddətdən sonra Vaçaqanın burada uca sütun tikdirdiyi»* nəzərə alınarsa, ehtimal etmək olar ki, buradakı ilkin tikili təxminən V əsrə aiddir.

Moisey Kalankatlının məlumatlarından belə nəticəyə gəlmək olar ki, Cirviştek monastırı erkən alban xristian tikililərindən biri olmuşdur.

Kompleksin hal-hazırda mövcud olan qalıqları (baş kilsə, yeddi zəng qülləsi, bir sıra yaşayış və təsərrüfat binaları, habelə güclü müdafiə divarları) daha sonrakı tarixi dövrün tikililəridir. Abidədəki yazılar bunu təsdiq edir. Lakin yazılar arasında elələri də vardır ki, burada qədim tikililərin mövcud olması fikrinin xeyrinə dəlillər verir. Baş kilsənin divarında həkk olunmuş yazıda deyilir: *«Mən, arxidyakon Serob bu müqəddəs guşədə əvvəlki özül üzərində müqəddəs apostolun [kilsəsini] tikdirdim»*.

Bu ilkin tikilinin tədqiqi məqsədilə baş kilsənin Şərq divarı yanında arxeoloji qazıntılar aparılmışdır. Qazıntılar nəticəsində xeyli qədim tikinti qalıqları və məişət əşyaları aşkar edilmişdir. Müəyyən olunmuşdur ki, Müqəddəs Yelisey məbədi də 8,7 metr uzunluğunda olmuş üçnefli bazilika idi. Məbədin şərq tərəfi nalşəkilli səcdəgah absidası ilə başa çatırdı. Bazilikanın yan neflərinin sonlarında keşiş cübbələrinin saxlandığı yerlər vardır. Məbəd IX-X əsrlərdə dağıdılmışdır.



Hazırda ermənilərin bu məbəddə qriqoryanlaşdırma işləri davam edir. Onlar məbədin müxtəlif yerlərində qriqoryan xaçlarının təfsirlərini yerləşdirmişlər. Lakin şəkillərdən də göründüyü kimi bu siyasət o qədər kortəbii alınır ki, bu yalançı tarixyaratmaq təşəbbüsünün nə qədər gülünc olduğunu anlamaq o qədər də çətin deyil.









*Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir.*

# CƏBRAYIL RAYONU

Cəbrayıl rayonu Kiçik Qafqaz dağlarının cənub-şərqində, Araz çayının sol sahilində yerləşir. Cənub tərəfdən İran İslam Respublikası, cənub-qərbdən Zəngilan, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən isə Füzuli rayonları ilə həmsərhəddir.

Sahəsi 1049.8 kvadrat kilometrdir. Tərkibinə bir şəhər, 2 qəsəbə və 92 kənd daxildir.

Cəbrayıl rayonu Azərbaycanın tarixi abidələri, eyni zamanda dini təyinatlı abidələri ilə zəngin rayonlarından hesab olunur. Rayonun köhnə qəbiristanlığında qədim yazılar yazılmış bir lövhə parçası aşkar olunmuşdur. Həmin yerdə, yolun qırağında isə iki başdaşı vardır. Başdaşılarının yuxarı hissəsində heyvan təsvirləri - dağ keçiləri və Qobustan qayaüstü təsvirlərini xatırladan müxtəlif tamqalar həkk edilmişdir. Cəbrayılın ətrafında müxtəlif bədii formaya malik qəbirdaşları vardır, onlardan qoç heykəli olan ikisi Azərbaycanın digər dağətəyi rayonlarındakı abidələrin analogiyasıdır.



***Xüdafərin körpüsü***

Cəbrayıl rayonunda müxtəlif türbələr - Dağtumas kəndində XIII-XVI əsrlərə aid türbə, Şıxlar kəndində yerləşən Şıxbaba türbəsi (XIV əsr), Xubyarlı kəndində XVI əsrə aid səkkizguşəli türbə və onlarla başqa tarixi-dini memarlıq nümunələri vardır.

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonu - IX əsrin əvvəllərindən başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir.

23 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində rayonun yaşayış məskənləri ilə yanaşı, tarixi-dini abidələri də məhv olunmuşdur.







**Tarixi-dini abidələri**

- Məscid (XVI əsr) – Çələbilər kəndi (İNV № 4170)
- Məscid (XIX əsr) – Papı kəndi (İNV № 4171)
- Məscid – Daşkəsən kəndi (İNV № 4172)
- Məscid (XIX əsr) – Mərzə kəndi (İNV № 4173)
- Məscid (XIX əsr) – Süleymanlı kəndi (İNV № 4174)

**Ziyarətgahları**

- Türbə (Sərdabə) (XIII-XIV əsrlər) – Dağtumas kəndi (İNV № 4169)
- Səkkizguşəli türbə (XVII əsr) – Xubyarlı kəndi (İNV № 4165)
- Dairəvi türbə (XVII əsr) – Xubyarlı kəndi (İNV № 4164)
- Daş məqbərə (1307-1308-ci illər) – Şıxlar kəndi
- Qəbiristanlıq (orta əsrlər) – Cəbrayıl şəhəri (İNV № 5790)
- Qəbiristanlıq (XVII-XVIII əsrlər) – Karxulu kəndi (İNV № 5791)

- Qəbiristanlıq (orta əsrlər) – Sirik kəndi (İNV № 5792)
- Qəbiristanlıq (orta əsrlər) – Diridağ dağında (İNV № 5793)
- Qəbiristanlıq (orta əsrlər) – Şıxlar kəndi (İNV № 5795)
- Şıxbaba (Dairəvi) türbəsi (XIV) əsr – Şıxlar kəndi (İNV № 4166)
- Mazannənə məqbərəsi (b.e ə.) – Xələfli kəndi
- Mərmərnənə məqbərəsi (b.e.ə.) – Xələfli kəndi
- Xırda pir – Balyand kəndi
- İspiri ocağı – Balyand kəndi
- Zingir ocağı – Cəfərabad kəndi
- Hacı Qaraman ocağı – Dağtumas kəndi
- Çaxmaq piri – Tinli kəndi
- Müqəddəs Düldül ziyarətgahı – Hacılı kəndi
- Qarı ocağı – Horovlu kəndi
- Pir Əhməd – Yarəhmədli kəndi
- Lalə ocağı – Böyük Mərcanlı kəndi
- Seyid ocağı – Əfəndilər kəndi
- Çələbi ocağı – Horovlu kəndi
- Hacı Qaraman ziyarətgahı – Çələbilər kəndi
- Qara daş ziyarətgahı
- Miri evi ziyarətgahı – Quycaq kəndi
- Düldül ziyarətgahı – Balyand kəndi
- Əfəndilər piri – Əfəndilər kəndi
- Qərib Seyid ziyarətgahı – Tatar kəndi
- Tumas ata ziyarətgahı – Dağtumas kəndi
- Cəbrayıl ata ziyarətgahı
- Xubyarlı piri – Xubyarlı kəndi
- Qərər piri – Qərər kəndi
- Sarı ocaq – Hovorlu kəndi
- Qurbantəpə ziyarətgahı
- İncirli piri ziyarətgahı – Şahvəlli kəndi
- Qasım Baba piri – Minbaşlı kəndi
- Düldül ziyarətgahı – Gödəklər kəndi
- Yel ziyarətgahı – Çaxırlı kəndi
- Yel ziyarətgahı – Əmirvarlı kəndi
- Seyid ziyarətgahı – Cocuq Mərcanlı kəndi

- Qara Molla ziyarətgahı – Daşkəsən kəndi
- Qarnıyarıq ziyarətgahı – Cəfərabad kəndi
- Dağdağan ocağı – Qumlaq kəndi
- Çomaq ata ziyarətgahı – Dağtumas kəndi
- Düldül ziyarətgahı – Hacılı kəndi

**Tarixi memarlıq abidələri**

- Ağoğlan nekropolu (ilk orta əsrlər) – Cəbrayıl şəhəri (İNV № 869)
- Məscidtəpə kurqanı (tunc dövrü) – Qalacıq kəndi (İNV № 878)
- Qız qalası (XII əsr) – Xələfli qəsəbəsi (Diridağ ərazisi) (İNV № 4168)
- Qala bürcü (V-VI əsrlər) – Sirik kəndi (İNV № 4167)
- Canqulu kurqanı (tunc dövrü) – Mahmudlu kəndi (İNV № 871)
- Quştəpə kurqanı (tunc dövrü) – Mahmudlu kəndi (İNV № 872)
- Karxulu kurqanları və yaşayış yeri (tunc dövrü) – Karxulu kəndi (İNV № 870)
- Naftalı kurqanları (son tunc və ilk dəmir dövrü) – Naftalı kəndi (İNV № 879)
- İmanqazantəpə kurqanı (son tünc dövrü) – Şıxlar kəndi (İNV № 876)
- Qışlaq kurqanları və yaşayış yeri (son tunc və ilk dəmir dövrü) – Qışlaq kəndi (İNV № 880)
- Hovuslu kurqanları (son tunc və ilk dəmir dövrü) – Hovuslu kəndi (İNV № 881)
- Cinlitəpə yaşayış yeri – Horovlu kəndi (İNV № 882)
- “Divlər sarayı” – Dağtumas kəndi (İNV № 884)
- Siklop tikililəri (b.e.ə. III minillik) – Tatar kəndi
- “Şəhərşik qalıqları”, “Qışlaq yerləri” (b.e.ə. II minillik) – Şıxlar kəndi
- On bir aşırımlı Xudafərin körpüsü (b.e.ə. V əsr) – Qumlaq kəndi
- On beş aşırımlı Xudafərin körpüsü (b.e.ə. VII əsr) – Qumlaq kəndi
- Kəhrizlər (b.e.ə. I əsr) – Mahmudlu kəndi
- Başıkəsik günbəz (XIII-XIV əsrlər) – Xələfli qəsəbəsi
- Ərəb yazıları ilə qoyun abidəsi (XV əsr) – Şıxlar kəndi
- Xanəgah – Xubyarlı kəndi
- Xanəgah – Şıxlar kəndi

# FÜZULİ RAYONU




Azərbaycanın iri yaşayış məskənlərindən olan Füzulinin əsası 1827-ci ildə qoyulmuşdur. Qarabulaq adlanan yaşayış məskəninin əsasında 1930-cu ildə rayon təşkil olunmuş və Qaryagin adlandırılmışdır. Rayon mərkəzi Qaryagin qəsəbəsi olmaqla, Qozluçay, Köndələnçay, Araz boyu və Füzuli-Ağdam magistral yolunun hər iki ətrafında olan kəndləri əhatə etmişdir.

1959-cu ildə böyük şairimiz Məhəmməd Füzulinin 400 illik yubileyi münasibətilə rayonun adı dəyişdirilərək, Füzuli rayonu adlandırılmışdır.

Rayonun ərazisi 1390 kvadrat kilometrdir. Tərkibinə bir şəhər və 78 kənd daxildir. Avqust ayının 23-ü 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri daxil olmaqla, 58 kənd işğal olunmuşdur.

Füzuli rayonu tarixi-dini abidələrlə, xüsusən də türbələrlə zəngindir. Bu abidələr sırasına rayonun Babı kəndində yerləşən səkkizguşəli Şeyx Babı Yaqub (XIII əsr) türbəsini, Aşağı Veysəlli kəndində XIV əsrə aid Mirəli türbəsini, Əhmədalılar kəndində orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşının üzərindəki türbəni, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsini aid etmək olar.



*Qarğabazar Karvansarası*

Karvansara 1681-ci ildə Füzuli rayonundakı Qarğabazar kəndinin mərkəzində, çox da hündür olmayan bir təpənin döşündə inşa olunmuşdur. Karvansara tikilisinin eni 23,7 metr, uzunluğu isə 34,7 metrdir. Qarğabazar kəndində tikildiyi üçün o, Qarğabazar karvansarası adı ilə tanınır. Bu tarixi abidəyə bəzən Şah Abbas karvansarası da deyirlər. Onun memarı məlum deyil.

Memarlıq üslubuna görə Qarğabazar karvansarası Alban dövrü memarlıq ənənələrinin oxşarıdır. Girişin sağ və sol tərəflərində gözətçi otaqları qarşısında iki böyük sal daş vardır. Görünür, gözətçilər həmin daşların üstündə dayanıb, karvansaraya daxil olan karvanların yüklərinə baxırmışlar. Karvansara ölkənin daşınmaz tarixi abidələrindən hesab edilir.

Qarğabazar kəndinin işğalından sonra ermənilər bu tarixi-memarlıq abidəsini mal tövləsinə çevirmişlər.



*Qarğabazar (Hacı Qiyasəddin) məscidi*

Qiyasəddin məscidi Qarğabazar kəndində, Şah Abbas karvansarasından yuxarı, qayanın üstündə yerləşir. Yerli əhali onu Şah Abbas məscidi də adlandırmışdır. Hacı Qiyasəddin Ağa Dizaği 1633-cü ildə Dizaq mahalının Qarğabazarı kəndində anadan olmuşdur. Sayılıb seçilən Hacı Qiyasəddin Qarğabazarı kəndinin kəndxudası olmuşdur. Deyilənlərə görə o, qurucu və xeyirxahlığı ilə seçilib. O, hicri-qəməri 1095-ci (miladi 1683/84) ildə doğma kəndlərində məscid tikdirmişdir. Həmin məscidin qapı çatı üzərindəki kitabədə yazılıb: *"Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib. h. t. 1095"*. Bu da miladi tarixi ilə 1683-84-cü illərə təsadüf edir.




***Məscidin planı***

Hacı Qiyasəddin məscidi eyvansızdır. Tamamilə yerli daş materialları ilə bir zaldan ibarət tikilmişdir. Dam örtüyü tağtavan şəkilindədir. Giriş qapısı nəzərə alınmasa burada ağac materialından istifadə olunmamışdır. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilmişdir. Həmin məbəd Hacı Qiyasəddin məscidi adlanır. Tarixi abidə kimi qorunur.

## HACI ƏLƏKBƏR MƏSCİDİ (İNV №4208)

Füzuli şəhərindəki Hacı Ələkbər məscidi memar Kərbalayı Səfixanın ilkin işlərindəndir. Məscidin giriş qapısı üzərindəki daş kitabədə *“Memar Kərbalayı Səfixan Qarabağinin işidir”* – sözləri yazılmışdır. Kitabədə məscidin tikilmə tarixi də – hicri tarixi ilə 1307-ci il göstərilir. Bu tarixi miladi təqviminə çevirəndə 1889-1890-cı illərə uyğun gəlir. Bu dini ocaq Hacı Ələkbər məscidi adlandırılmışdır. Hacı Ələkbər xeyriyyəçi olub. O, bu məscidin inşası üçün vəsait ayırıb və Şuşadan ustalar dəvət edib. Xeyirxah işlərinə hörmət və ehtiram əlaməti olaraq yerli camaat Hacı Ələkbər bəyi öz tikdirdiyi məscidin ibadət zalının sol pəncərələrindən birincisinin qənşərində dəfn etmişdir.

1993-cü ilin avqustunda Füzuli şəhərinin Ermənistan tərəfindən işğalı zamanı Hacı Ələkbər məscidi yararsız hala düşmüşdür.

*Xeyirxah işlərinə hörmət və ehtiram əlaməti olaraq yerli camaat Hacı Ələkbər bəyi öz tikdirdiyi məscidin ibadət zalının sol pəncərələrindən birincisinin qənşərində dəfn etmişdir.*







Füzuli rayonunun Aşağı Veysəlli kəndində təpə üzərində ucalan qülləvari türbə xalq arasında Mirəli türbəsi adı ilə tanınır. Türbənin iç quruluşu ikiqatlı olub yeraltı sərdabə və yerüstü kameradan ibarətdir.

Üzərində kitabə və ornament olmasa da inşaat texnikası və həcm-məkan quruluşuna görə, onun Elxanilər dövründə - XIII əsrin sonu XIV əsrin əvvəllərində tikildiyi şübhə doğurmur.

*Üzərində kitabə və ornament olmasa da inşaat texnikası və həcm-məkan quruluşuna görə, onun Elxanilər dövründə - XIII əsrin sonu XIV əsrin əvvəllərində tikildiyi şübhə doğurmur.*

**Tarixi-dini abidələri**

- Məscid (XVII əsr) – Qarğabazar kəndi (İNV № 4212)
- Məscid (XVIII əsr) – Qoçəhmədli kəndi (İNV № 4228)
- Məscid (XIX əsr) –Qaçar kəndi (İNV № 4216)
- Məscid (XIX əsr) –Dədəli kəndi (İNV № 4214)
- Məscid (XIX əsr) – Mərdanlı kəndi (İNV № 4217)
- Məscid (1889-cu il) – Horadiz qəsəbəsi (İNV № 4220)
- Məscid (XX əsr) – Horadiz qəsəbəsi (İNV № 4221)
- Məscid (XIX əsr) – Böyük Bəhmənli kəndi (İNV № 4211)
- Məscid (XIX əsr) – Yuxarı Veysəlli kəndi (İNV № 4225)
- Məscid (XIX əsr) – Aşağı Diləğarda kəndi (İNV № 4227)
- Sərdərli məscidi (XIX əsr) – Qoçəhmədli kəndi (İNV № 4231)
- Məscid (XIX əsr) - Gecəközlü kəndi (İNV № 4223)
- Məscid (XIX əsr) – Qoçəhmədli kəndi (İNV № 4233)
- Məscid (XVIII əsr) – Qaradağlı kəndi (İNV № 4237)
- Məscid (XIX əsr) – Qaraxanbəyli kəndi (İNV № 4240)
- Məscid (XIX əsr) – Qorqan kəndi (İNV № 4205)
- Məscid (XIX əsr) – Bəy Pirəhmədli kəndi (İNV № 4239)

**Ziyarətgahları**

- Məngələn ata piri – Qoca kəndi
- Mirami piri – Dilgəradə kəndi
- İbrahim türbəsi (XVIII əsr) – Aşağı Aybasanı kəndi
- Palıd ocağı – Böyük Bəhmənli kəndi
- İmamzadə ocağı (XIX əsr) – Horadiz qəsəbəsi (İNV № 4222)
- Yel piri – Pirəhmədli kəndi
- Sarı baba ocağı – Qoçəhmədli kəndi
- İlan ocağı – Sadarlı kəndi
- Pirocaq ocağı – Qacar kəndi
- Cəlil türbəsi (XIX əsr) – Qarğabazar kəndi
- Arqalı türbəsi (XIII əsr) – Aşağı Veysəlli kəndi
- Türbə (XIII əsr) – Əhmədallar kəndi
- Türbə (XVIII əsr) – Qarğabazar kəndi (İNV № 4213)
- Türbə (XIX əsr) – Seyidəhmədli kəndi (İNV № 4226)

- Türbə (XIX əsr) – Zuzarı Divanalılar kəndi (İNV № 4238)
- Mirmehdi Xəzani türbəsi – Tuğ kəndi
- Seyid Əşrəf ocağı
- İbə (İbn İbrahim) piri – Seyid Əhmədli kəndi

**Tarixi memarlıq abidələri**

- Hamam (XIX əsr) – Füzuli şəhəri (İNV № 4201)
- Alı körpüsü (XIX əsr) – Saracıq kəndi (İNV № 4234)
- Kərəm körpüsü (XIX əsr) – Saracıq kəndi (İNV № 4236)
- Sandığabənzər başdaşı (1624-1625-ci illər) – Əhmədallar kəndi
- Şah Abbas karvansarası – Qarğabazar kəndi
- Şah Abbas məscidi (1683-1684-cü illər) – Qarğabazar kəndi
- XII əsrə məxsus qəbiristanlıq – Aşağı Veysəlli kəndi
- Baba Yaqub daş məqbərəsi (1282-1284-cü illər) – Horadiz qəsəbəsi
- Oğuz qəbri – İşıxlı kəndi
- Karvansara (XVII əsr) – Qarğabazar kəndi




# KƏLBƏCƏR RAYONU

Kəlbəcər dəniz səviyyəsindən 1500-3800 metr yüksəklikdə, Tərtər çayı vadisində, Kiçik Qafqaz dağlarında yerləşir. Rayon zəngin flora və faunaya malik təbiət muzeyidir.

Kəlbəcər inzibati rayon kimi 8 avqust 1930-cu ildə yaradılmışdır. Ərazisi 3054 kvadrat kilometrdir. Rayona bir şəhər, bir şəhər tipli qəsəbə (İstisu) və 128 kənd daxildir. Dəlidağ, Keyti, Murovdağ, Kəpəz, Şərgi Göyçəgölü, Göyçənin Mıxtökən, Qarabağ yaylasının bir hissəsi Kəlbəcərin təbii sərhədləri tərkibindədir. Ən yüksək zirvəsi olan Camışdağın (Murov dağının zirvəsi) hündürlüyü 3724 metrdir.

Rayon faydalı qazıntılarla, o cümlədən qızıl, civə və qiymətli tikinti materialları (tuf, perlit, obsidan, travertin, və s.) ilə zəngindir. Kəlbəcərin 280 min hektar ərazisini meşələr təşkil edir.

Kəlbəcər rayonu ərazisində, Tərtər çayının sol sahilində yerləşən, xalq arasında “Xotavəng” və ya “Xudavəng”, yəni “Tanrı məbədi” adlandırılan monastır kompleksi Qafqaz Albaniyası dağıldıqdan sonra (IX əsrdə) Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi olmuşdur. Kompleksdə alban yepiskopunun iqamətgahı olmuş və dini maarif mərkəzi fəaliyyət göstərmişdir. Arxeoloji tədqiqatların nəticələri göstərir ki, monastırın əsası VI-VII əsrlərdə qoyulmuşdur. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirmişdir. Kilsənin şərq fasadında daş üzərində knyaz Vaxtanqın, cənub fasadında isə Arzu xatunun iki oğlunun təsvirləri həkk olunmuşdur. Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə erməni və gürcü xalqlarının kilsələrindən fərqlənir.

Vəngli kəndində Xaçın çayının sol sahilində dağın üstündə ucaldılmış məşhur Qandzasar (Gəncəsər) monastırı Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Monastırın divarında daş üzərindəki epiqrafik yazıda bildirilir: “*Yüksək və böyük Arsax ölkəsinin hökmdarı, geniş vilayətin çarı, Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu Həsən Cəlal Dövlə və anası Xorişə Xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilmişdir*”.

Albaniyada I əsrin ortalarında hakimiyyətə gəlmiş çar I Vaçaqanın nəslindən olan Arşakilər sülaləsinin hökmdarları "arşax", VI əsrdən VIII əsrin əvvəlinədək hakimiyyətdə olmuş Mehranilər sülaləsinin hökmdarları isə "aranşax" adlandırılmışlar. 1261-ci ildə monqol-tatar işğalçıları tərəfindən İranın Qəzvin şəhərində qətlə yetirilmiş Həsən Cəlal Dövləni oğlu knyaz Atabəy Qandsazar monastırında dəfn etmişdir. Bu monastır 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Sinodunun (ölkənin ruhani idarəsi) rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək, diofizit (Həzrət İsanın (ə) həm bəşəri, həm də ilahi sifətə malik olmasına inanmaq) alban xristianlarının iqamətgahı olmuşdur. Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimi bu monastır kompleksinin ərazisində dəfn edilmişdir. Hündür qala divarları ilə əhatə olunmuş Qandzasar kompleksinə alban xristian memarlığı üslubunda inşa edilmiş baş kilsə, ona bitişik dörd maili dam örtüyündə yüksələn monastır binası və qala divarlarına içəri tərəfdən hörülmüş tikililər daxildir.

Monastır kompleksinin memarlıq üslubu, heykəltəraşlıq nümunələri və diofizit xarakterli elementlər bu abidənin çoxəsrlik ənənələri olan Qafqaz Albaniyası memarlığına aid olduğunu təsdiq edir. Uzun müddət yerli xristianların iqamətgahı olmuş monastır dinin baş xəzinəsi mənasında Gəncəsər adlanmışdır.

## "XUDAVƏNG" MƏBƏDİ



Azərbaycan Albaniyası memarlığının möhtəşəm nümunələrindən biri də "Xudavəng" (İNV № 11) monastır kompleksidir. Ağdərə-Kəlbəcər magistral yolunun üstündəki Bağlıpəyə kəndindən aşağı, Kəlbəcər rayonunun 29 kilometrliyində yerləşən bu qədim Alban məbəd kompleksi VI-VII əsrlərdə inşa olunmuşdur. Məbədin ilkin tikintisinin məhz bu dövrə aid olması buradakı qazıntılar zamanı aşkara çıxarılmış saxsı məmulatların öyrənilməsi nəticəsində aşkarlanmışdır. Sonrakı dönəmlərdə məbəd bir neçə dəfə təmir edilərək ona əlavələr olunmuş, nəhayət, Xaçın knyazı Həsən Cəlal (1215-1261) tərəfindən məbəddə əsaslı bərpa işləri həyata keçirilmişdir. Bəzi məlumatlara görə, Həsən Cəlalın həyat yoldaşı Minə Xatun burada dəfn olunmuşdur.

Ümumilikdə, kompleksə doqquz tikili daxildir: 1. Qədim kilsə; 2. Kiçik birnefli Müqəddəs Məryəm ana bazilikası; 3. Arzu Xatun məbədi; 4. Həsən Cəlal məbədi; 5. Müqəddəs Qriqoris məbədi; 6. Arzu Xatun məbədinə əlavə edilmiş zal; 7. Zəng qülləsi; 8. Məktəb binası; 9. Qalereya.









Bu tikililərdən beşi əsas, digərləri köməkçi xarakteri daşıyır. Məbəd kompleksinə daxil olan bu abidələrin heç də hamısı dövrümüzədək yaxşı vəziyyətdə çatmamış, yaşca daha qədim olanları nisbətən uçmuşdur.

Binaların inşası zamanı əsasən yerli qara bazalt daşdan, bişmiş kərpicdən və əhəng məhlulundan istifadə edilmişdir. Damları isə kirəmit və səliqə ilə kəsilmiş daşlarla örtülmüşdür. Maraqlısı odur ki, üstü günbəz kimi inşa edilmiş binaların tikintisində ağac materialından istifadə olunmuşdur. Məbəd binalarında pəncərə oyuqları da mövcuddur. Həmin oyuqların yuxarı hissəsi nalşəkilli formada düzəldilmişdir.

Monastıra daxil olan tikililərin divarlarında yağlı boya ilə çəkilmiş çoxlu şəkillər və yazılar həkk edilmişdir. Kompleksin ətrafı digər alban monastırlarında olduğu kimi möhkəm divarlarla əhatələnmişdir.

Kompleksə daxil olan Arzu Xatun kilsəsi öz monumentallığı ilə seçilir. Bu məbəd 1214-cü ildə Alban knyazı Vaxtanqın xanımı Arzu Xatun Arcruni tərəfindən ərinin və iki oğlunun xatirəsinə inşa etdirilmişdir.

Düzbucaqlı şəklində inşa edilmiş kilsənin qapısının hər iki tərəfində xırda otaqlar vardır. Binanın mərkəzində böyük bir alın hissənin

üstündə qübbə ucaldılmış, qübbənin üstü isə konusvari damla örtülmüşdür. Kilsənin fasadı səliqə ilə yonulmuş daşla üzlənmiş, daşların üstündə qabartma və oyma şəklində çox incə naxışlar işlənmişdir. Məbədin şərq fasadında daş üzərində Vaxtanqın, cənub fasadında isə Arzu Xatunun və iki oğlunun təsvirləri həkk edilmişdir.

Torpaqlarımız işğal edildikdən sonra "Xudavəng" məbədi də dəfələrlə ermənilərin təcavüzünə məruz qalmışdır. Düşmən, abidədəki Alban kilsəsinə aid xaç və yazıları balta ilə çaparaq yox etmiş, beləliklə, tarixi saxtalaşdırmağa çalışmışdır. Onlar öz təbliğatlarında bu məbədini erməni kilsəsi kimi təqdim edir, xalqımızın maddi-mədəni irsini özününküləşdirirlər.

## "GƏNCƏSƏR" MƏBƏDİ





"Gəncəsər" (İNV № 10) keçmiş Ağdərə rayonunun Vəngli kəndində, Xaçın çayının sol sahilində yerləşən XIII əsr xristian Alban monastırıdır. Orta əsrlərdə monastır Alban Kilsəsinin mərkəzi iqamətgahı olmuşdur.

Məbəd Gəncədağ dağında tikilmiş və adını da buradan almışdır. Dağın adı isə ərəb dilindəki kənisə - "məbəd" və Azərbaycan dilindəki "dağ" sözündəndir. Kənisə sözünün ərəb dilində olması orada ərəblərin yaşaması ilə əlaqədar deyil. Bu o deməkdir ki, XII əsrdə Azərbaycan dilində kənisə (kənsə, gənzə) sözü vardı və Azərbaycan dilindən həmin söz dağın adına keçmişdir.

Kənisə - "məbəd" sözü respublikamızda Kənzə, Kənzəçay (Ordubad rayonu), Kənizədağ (əslində Kənisədağ) İsmayıllı rayonunda və b. toponimlərdə qalmışdır.

Bu məbəd Artsax hökmdarı Həsən Cəlal və oğlu tərəfindən 1216-1265-ci illərdə tikilmişdir. Monastrın özündə saxlanan epiqrafikanın köməyilə məlum olur ki, indiki, mövcud məbədin tikintisinə Həsənin atası Vaxtanqın vəsiyyəti ilə 1216-cı ildə başlanmışdır. 1261-ci ildə monqollar tərəfindən İranın Qəzvin şəhərində qətlə yetirilmiş Həsən Cəlal Dövləni oğlu knyaz Atabəy gətirib "Gəncəsər" məbədində dəfn etmişdir. Bu məbəd 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Provaslav Kilsəsi Sinodunun rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək diofizit alban xristianlarının iqamətgahı olmuşdur. Həsən Cəlalın nəslindən olan bir çox alban din xadimləri bu məbəd kompleksinin ərazisində dəfn edilmişlər. Həsən Cəlalın qəbrinin üstündə belə bir yazı var: *"Ulu knyaz Cəlal öz valideyninin vəsiyyətini yerinə yetirərək 665-ci ildə (1216-cı ildə) bu gözəl və daş (kapital) kilsəni tikdi və onu bütün mümkün şəkillərlə (bəzəklərlə) dövrələyərək 687-ci ildə (1238-ci il) özünün və arvadı Məmkanın iradəsi ilə onu bitirdi"*. Monastrın daxilində, kupelin altındakı yazı və Kirakos Qandzaketsinin məlumatı da bunu təsdiq edir.

1240-cı ildə tikilmiş abidə pak edilmişdir (müqəddəs su səpilmişdir): Yazıya görə: *"Bu kilsə 689-cu ildə (1240) Alban Katolikosu Ter-Nersesin patriarxlığı dövründə pak edilib"*.

*Bu məbəd 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya Provaslav Kilsəsi Sinodunun rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək diofizit alban xristianlarının iqamətgahı olmuşdur.*



Həsən Cəlalın arvadı Məmkan bu kilsənin darvazaları yanında gözəl bir qavit tikdirmişdir. Əvvəlcə "Gəncəsər" Cəlali knyazlarının, alban katalikosları və Xaçının mühüm şəxslərinin dəfn edildiyi yer olmuşdur. Orada alban katalikoslarının iqamətgahları, vardapetlər məktəbi, əlyazmaların saxlandığı kitabxana və s. da yerləşmişdir. Qəbirüstü abidələrin üzərindəki bəzi yazılar: *"Bu 1102-ci (1653) il Alban katalikosu Qriqorinin qəbridir". "Bu Cəlal Dolanın nəslindən olan 1149-cu il (1700) alban katalikosu Yereminin qəbridir". "Bu alban katalikosu Yesaynın qəbridir... 1177 (1728)".*

Hətta, XVII əsrin sonunda da yerli əhali "Gəncəsər"i alban adlandırırdı. Ruhani Apav monastrın damını bərpa edib orada belə bir yazı qoymuşdur: *"... Aqvan Gəncəsərin müqəddəs taxtında bizim saf niyyətlə verilmiş vəsaitlərimizdən istifadə edib kilsələrin damlarını və dağılmış divarlarını tikdilər".*

"Gəncəsər" və onun camaatının XIII əsr Alban kilsəsinin sonrakı tarixini öyrənmək üçün çox mühüm sənəddir. Abidədə bir çox diofizit elementləri var ki, bunlar da XIII əsrdə Alban katolikosluğunun başqa kilsələrə tabe olmaq istəməməsini bir daha təsdiq edir.

Məbəd kompleksinin memarlıq planlaşdırma və kompozisiya həlli, heykəltəraşlıq nümunələri və diofizit xarakterli elementləri onun çoxəsrlik ənənələri olan Azərbaycan Albaniyası memarlığına aid olduğunu təsdiq edir.

"Gəncəsər" məbədinin orta əsrlərdə mülkü vardı. Bu mülkdə yerləşən kəndlilərin əhalisi məbədə mənsub idi. 1825-ci ilə aid arxiv sənədlərində göstərilir ki, 4 ailədən ibarət Ballıqaya və 55 ailədən ibarət Vəngli kəndlərinin istifadə etdiyi torpaqlar "Gəncəsər mülkü", həm də Güzlək və Dizak adlanır. Sənəddə qeyd olunur ki, Ballıqayanın əhalisi təmiz türklərdir (azərbaycanlılardır), amma Vənglidə ermənilər də yaşayır, onları məbədin kahini Sərkis xaricdən gətirmişdir.

*"Gəncəsər" və onun camaatının XIII əsr Alban kilsəsinin sonrakı tarixini öyrənmək üçün çox mühüm sənəddir. Abidədə bir çox diofizit elementləri var ki, bunlar da XIII əsrdə Alban katolikosluğunun başqa kilsələrə tabe olmaq istəməməsini bir daha təsdiq edir.*



**Tarixi-dini abidələri**

- Alban məbədi (500-cü il) – Həsənriz kəndi (İNV № 280)
- Alban məbədi (1283-cü il) – Həsənriz kəndi (İNV № 279)
- Alban məbədi (V-IX əsrlər) – Vəng kəndi
- Alban kilsəsi (V-VII əsrlər) – Çərəkdar kəndi
- Alban məbədi (614-cü il) – Kolataq kəndi (İNV № 270)
- Müqəddəs Yaqub kilsəsi (635-ci il) - Kolataq kəndi (İNV № 269)
- Alban məbədi (672-ci il) – Qocaqot kəndi (İNV № 278)
- Alban məbədi (698-ci il) – Qocaqot kəndi (İNV № 277)
- Alban məbədi (713-cü il) – Dəstəgir kəndi (İNV № 4498)
- Alban məbədi (718-ci il) – Qasapet kəndi (İNV № 4485)
- Kilsə (1894-cü il) – Qasapet kəndi (İNV № 4486)
- Kilsə (1898-ci il) – Maqadiz kəndi (İNV № 4488)
- Kilsə (1668-ci il) – Dovşanlı kəndi (İNV № 4482)
- Kilsə (XVII əsr) – Dəvədaşı (Poqosoqomer) kəndi (İNV № 4483)
- Qırmızı məbəd (XVII əsr) – Qozlu kəndi (İNV № 4484)
- Urek məbədi (1279-cü il) – Talış kəndi (İNV № 4489)
- Alban kilsəsi (VIII-IX əsrlər) – Tərtər çayının Bulanıq çayı ilə qovşağında
- Alban məbədi (X əsr) – Çormanlı (Qarnakar) kəndi (İNV № 274)
- Alban kilsəsi (XI əsr) – Çormanlı (Qarnakar) kəndi (İNV № 275)
- Kilsə (1883-cü il) – Maxrataq kəndi (İNV № 4490)
- Məbəd (1881-ci il) – Maxrataq kəndi (İNV № 4491)
- Məbəd – Maxrataq kəndi (İNV № 4492)
- Məbəd – Şaplar kəndi (İNV № 4493)
- Məbəd – Şaplar kəndi (İNV № 4479)
- Məbəd (XIII əsr)– Vəngli kəndi (İNV № 4478)
- Məbəd – Kiçan kəndi (İNV № 4480)
- Məbəd (1251-ci il)– Smakaok kəndi (İNV № 4481)
- Alban məbədi (XII əsr) – Çıldıran kəndi (İNV № 272)
- Qırmızı məbəd (XIII əsr) – Çıldıran kəndi (İNV № 273)
- “Xatırvank” məbədi (1204-cü il) – Qozlu kəndi (İNV № 276)
- Məscid (XIX əsr)
- Məscid (XVIII-XIX əsrlər) – Başlıbel kəndi
- Məscid (XIX əsr) - Otaqlı kəndi

**Ziyarətgahları**

- Qəbristanlıqlar (3 ədəd) orta əsrlər – Qasapet kəndindən 5-6 kim aralı (İNV № 5844)
- Qoç daşlar piri – Əsir kəndi yaxınlığında
- Seyid Əsədullahın ziyarətgahı (XIX əsr) – Söyüdlü yaylağı
- Seyid Bağır ağanın ocağı – Başlıbel kəndi
- Seyid Əliabbas ağa ziyarətgahı – Başlıbel kəndi
- Seyid Əhməd ağa ocağı

**Tarixi memarlıq abidələri**



- Dovşanlı nekropolu (son tunc ilk dəmir dövrü) – Araçadzor kəndi (İNV № 1228)
- Balıqaya nekropolu (son tunc ilk dəmir dövrü) – Sırxavənd kəndi (İNV № 1229)
- Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) – Zar kəndi (İNV № 6155)
- Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi (İNV № 6156)
- Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi (İNV № 6157)
- Daş qoç fiqurları - ərəb yazısı ilə (XIX əsr) - Zar kəndi (İNV № 6158)
- Daş at fiquru – Zəylik kəndi - (İNV № 6159)
- Celabert qalası – Qasapet kəndi (İNV № 4487)
- Lök qalası (VII-VIII əsrlər) – Qanlıkənd kəndi
- Uluxan qalası (VII-IX əsrlər) – Qaracanlı kəndi
- Qalaboynu qalası (VIII-IX əsrlər) – Qalaboynu kəndi
- Comərd qalası (VIII-IX əsrlər) – Comərd kəndi
- Keşikçi qalası (VIII-IX əsrlər) – Qamışlı kəndi
- Urud abidələrinin xronoloji sayı (1478-1610) – Zar, Zeylik, Keşdək kəndləri
- Tağlı daş körpü (XIX əsr) – Soyuqbulaq kəndi



# LAÇIN RAYONU




Laçın rayonu Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşir. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətlərilə zəngin guşələrindəndir. Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır.

1924-cü ildə təsis edilmiş rayonun ərazisi 1883 kvadrat kilometr olmuşdur. 1992-ci il mayın 18-də erməni qəsbkarları tərəfindən işğal olunandan sonra rayon əhalisi məcburi köçkün kimi respublikamızın 64 şəhər və rayonunda məskunlaşmışdır. İşğal zamanı yüzlərlə günahsız insan şəhid edilmiş, yaralanmış, 1200-dən artıq körpə yetim qalmış, rayonun bir çox tarixi-dini abidəsi məhv olunmuşdur.

Rayon ərazisindəki Ağoğlan çayı sahilində IX əsrdə inşa edilmiş və uzun müddət fəaliyyət göstərmiş Ağoğlan monastır kompleksi yerləşir. Möhkəm bazalt daşdan tikilmiş bu möhtəşəm monastır məharətli konstruktiv həllinə görə alban xristian memarlığı abidələri içərisində xüsusi yer tutur. Monastır binasının daxili həcmi üç hissədən ibarətdir. Daşlardan hörülmüş açıq dam örtüyünü saxlayan hündür daş sütunlar silindrik formalı tağbəndlərlə tamamlanır. Məbədin daxili sahəsini işıqlandırmaq üçün divarlarda ensiz və uzunsov pəncərələr vardır.

Laçın rayonunun Malıbəy kəndində aşkarlanmış üç at heykəlli qəbir daşında (XVI-XVII əsrlər) və Almazzisxevndə yerləşən (XIV əsr) at heykəlli abidənin bud tərəfində həkk olunan üç üfüqi və bir şaquli xətt çox maraqlıdır. Qarabağ abidələrindəki epiqrafik məlumatlardan və təsviri incəsənət motivlərindən Cənubi Qafqazda Azərbaycan xalqının təşəkkülündə mühüm rol oynamış qədim türk tayfalarının məskunlaşmasını müəyyən etmək olar. Laçın rayonunun Malıbəy, Güləbird, Cicimli kəndlərində at heykəlli qəbir daşlarında günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri vardır. Məlumdur ki, Humay quşu qədim türk xalqlarının tanrısı olmuşdur və bunun abidələrin üzərində təsviri, güman ki, abidələri dağılmaqdan qorumaq məqsədi daşıyırdı. Laçın rayonunun Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası da olmuşdur.

Laçının Ağoğlan məbədinə gedən yolun sağında XVI əsrin at heykəlli və sənduqə formalı qəbir daşları vardır. Həmçinin, Laçın rayonunda Məlik Əjdər türbəsi, Mirik kəndində XV əsrə aid Alban məbədi, Minkənddə XV əsrə aid məbəd, Qarıqışlaq kəndində XI əsrə aid Dəmirovlu piri, Ərikli kəndində XVI əsrə aid Qarasaqqal türbəsi vardır.

## “AĞOLAN” MƏBƏDİ

V-VI əsrlərə aid alban monastırı olan “Ağoğlan” məbədi (İNV № 310) Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz







*Qəsr kimi tikilən Ağoğlan məbədi vaxtilə "Qaranquş qəsri" adı ilə də bilinmişdir.*

qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir.

Əvvəllər məbədin qəsr kimi tanınması rəvayətlərdə də öz əksini tapmışdır. Belə rəvayət edilir ki, qədim zamanlarda bu ərazidən keçən gənc bir səyyah buranın gözəl təbiətinə heyran olmuş və bu məkanda qəsr tikdirmək qərarına gəlmişdir. Ətrafında yerli əhalidən tikinti işini bacaran könüllülərindən dəstə toplayıb işə başlamışdır. Xalqın sevgisini və rəğbətini qazanan gənc, çox yaraşıqlı olduğundan yerli əhali onu "Ağoğlan" adlandırıbmış.

Tikilən qəsr vaxtilə "Qaranquş qəsri" adı ilə də bilinmişdir. Bununla bağlı rəvayət də çox maraqlıdır. Deyilənə görə, günlərin bir günü, günorta yeməyi vaxtı bir qaranquş aşpazın başına fırlanıb, onun camaata yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar quşun bu hərəkətinə maraqla tamaşa edir, lakin heç nə anlamırmışlar. Anidən qaranquş özünü qaynar qazanın içinə atıb öldürür. Bundan qəzəblənən aşpaz yeməyi kənara boşaldarkən qazanda ilan ölüsü olduğunu görür. Camaat isə heyrətdən donub qalır.

Qəsrin sahibi xilaskar quşun ölüsünü təntənə ilə tikilinin yanında basdırır, qəsri də onun şərəfinə "Qaranquş qəsri" adlandırır. Lakin zaman ötdükcə qəsrin bu adı unudulmuş və məbədə çevriləndən sonra isə xalq arasında onu tikdirənin şərəfinə "Ağoğlan" kimi tanınmağa başlanmışdır.

Məbəd kifayət qədər böyük ölçülərə malikdir. Plan baxımından üç nefli olan düzbucalı bazilikadan ibarətdir. İbadət zalının bütün nefləri silindrik formalı tağlarla örtülmüşdür.

İnteryer baxımından bazilika möhkəm yerli daş olan bazaltdan inşa edilmişdir. Tikilinin fasadının yan tərəfində zala yeganə giriş oyuğu var. Fasadın hamar səthləri yuxarı hissədə isə bir-birindən uzaq məsafədə yerləşmiş ensiz pəncərə oyuqları ilə kəsilir və zalın daxili məkanına bu oyuqlardan işıq düşür.

"Ağoğlan" məbədinin daxili divarları yonulmuş iri, qara daşlarla üzlənmişdir. Vaxtilə divarlarda, mala üzərində tematik çoxrəngli rəsmlər çəkilmişdi. Onların çox hissəsi zamanla silinsə də, şimal divarında indiyədək qismən freska rəsmli fraqmentlər qalmaqdadır. Zalın

interyerinin yuxarı hissələrində daş üzərində dekorativ oymalar tətbiq edilmişdir.

1992-ci ildə erməni qəsbkarları ərazini işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə daş yazıları, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə silmiş, formalarını dəyişdirmişlər. Məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər.

Saxtakarlıqlarında daha da irəli gedən ermənilər kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını söküb kirəmid və dəmirlə əvəzləmişlər.

**2007-ci ildə İrəvan şəhərində Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə erməni qriqoryan kilsəsi statusu verməklə işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırımı siyasəti yürütdürdüklərini bir daha əyani şəkildə göstərdilər.**

*Ermənilər məbədin guya xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər.*

**Tarixi-dini abidələri**

- Məscid (1718-ci il) – Qarqışlaq kəndi (İNV № 4733)
- Məbəd (XVII əsr) – Piçənis kəndi (İNV № 4737)
- Məscid – Piçənis kəndi (İNV № 4736)
- Məscid – Piçənis kəndi (İNV № 4738)
- Məbəd (XII əsr) – Qorçu kəndi (İNV № 4739)
- Məbəd (X əsr) – Aşağı Fərəcan kəndi (İNV № 4740)
- Məbəd (XV əsr) – Şalva kəndi (İNV № 4741)
- Məbəd (XV əsr) – Əhmədli kəndi (İNV № 4742)
- Məbəd (XV əsr) – Minkənd kəndi (İNV № 4745)
- Məbəd (XV əsr) – Minkənd kəndi (İNV № 4746)
- Məbəd (XV əsr) – Mirik kəndi (İNV № 4758)
- Məbəd (XIX əsr) – Sonasar kəndi (İNV № 4762)
- Məbəd (XVII əsr) – Sadınlar kəndi (İNV № 4764)
- Məbəd (XVII əsr) – Hoçaz kəndi (İNV № 4724)
- Mağara məbədi (V əsr) – Hoçaz kəndi (İNV № 4764)
- Düzbucaqlı məscid-mədrəsə (1790-1791) – Cicimli kəndi





## Ziyarətgahlar

- Məlik Əjdər türbəsi (XIV əsr) – Cicimli kəndi (İNV № 311)



- Türbə (XVII-XVIII əsrlər) – Cicimli kəndi (İNV № 312)
- Sultan Baba piri (XIX əsr) – Zeyvə kəndi (İNV № 4764)
- Türbə - Güləbird kəndi (İNV № 4726)
- "Ağbaxt xeyir" türbəsi – Əhmədli kəndi (İNV № 4743)
- Soltanbaba türbəsi (XIX əsr) – Zeyvə kəndi (İNV № 4729)
- Şeyx Əhməd türbəsi (XIX əsr) – Zeyvə kəndi (İNV № 4730)
- Türbə (XIX əsr) – Zeyvə kəndi (İNV № 4731)
- Dəmirovlu Pir məbədi – Qarıqışlaq kəndi (İNV № 4730)
- "Aşığ" qəbiristanlığı (orta əsrlər) – Mezmazak kəndi (İNV № 5923)

- Qəbiristanlıq (orta əsrlər) – Abdallar kəndi (İNV № 5924)
- Araxışda türbəsi (XVI əsr) – Ərikli kəndi
- Qarasaqqal türbəsi (XVI əsr) – Ərikli kəndi
- Xəlifə türbəsi (XVII əsr) – Malxələf kəndi
- Türbə (XIX əsr) – Zeyvə kəndi
- Ağa Baba piri – Seyidlər kəndi
- Əli bulağı piri – Hocaz kəndi
- Xəlif piri – Məlikpaya kəndi
- Seyid  Kərimin ocağı – Farraş kəndi
- Yer daş piri – Qarakeşiş kəndi
- Xəlifə qəbri ziyarətgahı – Malıbəy kəndi
- Alı Xəlifə ocağı – Böyük Seyidlər kəndi
- Seyid Hüseyn ağa ziyarətgahı – Böyük Seyidlər kəndi
- Güllü qəbir piri – Böyük Seyidlər kəndi

**Tarixi memarlıq abidələri**

- Körpü (X əsr) - Aşağı Fərəcan kəndi (İNV № 4740)
- Qala (XV əsr) – Mirik kəndi (İNV № 4757)
- Daş qutusu (dəmir dövrü) – Abdallar kəndi (İNV № 1457)
- Kurqan (dəmir dövrü) – Cicimli kəndi ("Qızqəbri" kurqanından 200-280 m aralı) (İNV № 1458)
- "Qızqəbri" kurqanı (dəmir dövrü) – Cicimli kəndi (İNV № 1459)
- Kurqan (dəmir dövrü) – Cicimli kəndi (İNV № 1460)
- Kurqan (tunc dövrü) – Ziyrik kəndi (İNV № 1461)
- Kurqan (dəmir dövrü) – Qoçaz kəndi (İNV № 1462)
- Kurqan (dəmir dövrü) – Güləbird kəndi (İNV № 1463)
- Üzərində ərəb yazıları olan daş at fiquru (XVI əsr) – Malıbəy kəndi (İNV № 6171)
- Üzərində ərəb yazıları olan daş at fiquru (XVI əsr) – Malıbəy kəndi (İNV № 6172)
- Daş at fiquru – Malıbəy kəndi (İNV № 6173)

- Üzərində ərəb yazıları olan daş at fiqiru (XVII əsr) – Güləbird kəndi (İNV № 6174)
- Daş at fiqiru – Güləbird kəndi (İNV № 6175)
- Üzərində ərəb yazıları olan daş at fiqiru – Güləbird kəndi (İNV № 6176)
- Daş qoyun fiqiru – Küsülü kəndi (İNV № 6177)
- Daş qoyun fiqiru (XVII əsr) – Keçmiş Xallanlı kəndi (İNV № 6178)
- Daş at fiqiru – Keçmiş Xallanlı kəndi (İNV № 6179)
- Kafir-qala (XVII əsr) – Zeyvə kəndi (İNV № 4732)
- Birtağlı körpü (XIX əsr) – Minkənd kəndi (İNV № 4748)
- İkitağlı körpü (XIX əsr) – Minkənd kəndi (İNV № 4747)
- Birtağlı körpü (XIX əsr) – Zabux kəndi (İNV № 4754)
- Soltan Əhməd sarayı (XIV əsr) – Soltanlar kəndi (İNV № 4728)





- Həmzə Soltan sarayı (1761-ci il) – Hüsulu kəndi (İNV № 4727)
- Sarı Aşığın ev muzeyi – Güləbird kəndi (İNV № 5670)







❖ Laçın Tarix-diyarşünaslıq muzeyi – Laçın şəhəri







*Kar günbəz*



*Minkənd qəbiristanlıq*



*Məlik Əjdər türbəsinin giriş qapısı*



*Məlik Əjdər türbəsi*



*Məlik Əjdər türbəsi*



*Məlik Əjdər türbəsinin divar rəsmi*



*Varağuzun məbədi*



*Mirik kəndi*



*Varağuzun məbədinin daxili görüntüsü*




# QUBADLI RAYONU

Qubadlı rayonu 1933-cü ildə yaradılmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan rayon ilə birləşdirilmiş, 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. 800 kvadrat kilometr ərazisi olan bu dağ rayonunun mərkəzi Qubadlı şəhəridir. Şəhər Bərgüşad çayının hər iki sahilində yerləşir. İşğaldan əvvəl rayon əhalisi 94 kənd və bir şəhərdə məskunlaşmışdı. Rayonun əhalisi, əsasən, kənd təsərrüfatı və heyvandarlıqla məşğul olmuşdur.

Rayon ərazisi Qarabağ yaylasının cənub-şərqində, Həkəri və Bərgüşad çayları hövzəsində yerləşir. Qərbdən Ermənistanla (120 kilometr), şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Cəbrayıl rayonları ilə həmsərhəddir.

Qubadlı Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Rayon ərazisində inşa olunan ilk dünyəvi məktəbin yaşı bir əsrdən artıqdır.

Qubadlıdakı Gavur dərəsində IV əsrə aid ibadətgah mağara yerləşir. Rayonun Muradxanlı kəndindəki V əsrə aid Qalalı qalası, Əliquluuşağı kəndindəki Göy qala abidələri, Yazı düzündəki XIV əsrə aid Cavanşir türbəsi, Dəmirçilər kəndindəki iki türbə, Gürcülü kəndindəki XVII əsrə aid türbə, Xocamsaxlı kəndindəki XVIII əsrə aid türbə rayon ərazisinin tarixi-dini abidələrlə zənginliyindən xəbər verir.

Rayon 31 avqust 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Nəticədə, minlərlə rayon sakini evlərindən didərgin düşmüş, onlarla tarixi-dini abidəmiz məhv olunmuşdur.

**Tarixi-dini abidələri**

- ❖ Mağara məbədi (IV əsr) – Gavur dərəsi (İNV № 1456)
- ❖ Mağara məbədi – Əliquluuşağı kəndi (İNV № 1155)



❖ **Məscid (XVIII əsr) – Məmər kəndi (İNV № 4713)**

❖ Məscidin qalıqları (XV-XVI əsrlər) – Xələc kəndi (İNV № 4714)
❖ Məscid (XVIII əsr) – Yusifbəyli kəndi (İNV № 4709)
❖ Məscid (XVIII əsr) – Mollalı kəndi (İNV № 4711)
❖ Məscid (XVIII əsr) – Mirlər kəndi (İNV № 4712)
❖ Məbəd – Mərzə kəndi (İNV № 4715)
❖ Məscid (XIX əsr) – Dondarlı kəndi (İNV № 4704)
❖ Məscid (XIX əsr) – Dəmirçilər kəndi (İNV № 4703)
❖ Məscid (XIX əsr) – Mahrızlı kəndi (İNV № 4716)
❖ Alban kilsələri və abidələri – Yuxarı Cibikli kəndi

*Qubadlı Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Rayon ərazisində inşa olunan ilk dünyəvi məktəbin yaşı bir əsrdən artıqdır.*



**Ziyarətgahları**

- Qəbiristanlıq (XIV əsr) – Qayalı kəndi, Yazı düzü ərazisində (İNV № 1454)
- Türbə (1 nömrəli) (XIV əsr) – Dəmirçilər kəndi (İNV № 308)
- Türbə (2 nömrəli) (XIV əsr) – Dəmirçilər kəndi (İNV № 309)
- Cavanşir türbəsi (XIV əsr) – Yazı düzü (İNV № 4706)
- Türbə (XVII əsr) – Dəmirçilər kəndi
- Türbə (XVII əsr) – Gürcülü kəndi (İNV № 307)
- Türbə (XVIII əsr) – Xocamusaqlı kəndi (İNV № 4708)
- Türbə (XVIII əsr) – Boyunəgər kəndi (İNV № 4710)
- İmamzadə - Cılfır kəndi
- Mir Sədi ağa ocağı – Mirlər kəndi
- Ağ hasar piri – Mirlər kəndi
- Mirmehdi ağa piri – Dondarlı kəndi
- Armudlu piri – Armudlu kəndi
- Səfərə baba piri – Saray kəndi
- Qarakaha piri – rayon mərkəzindən 20 km şimalda
- Ağkaha piri – rayon mərkəzindən 20 km şimalda
- Ağa Kərim Yalı piri – rayon mərkəzindən 15 km aralı
- Salahlı piri – Mərdanlı kəndi
- İmamzadə - Novlu kəndi
- Umoy Kaha piri – Qaracallı kəndi
- Mədət bulağı (XIX əsr) – Mahmudlu kəndi (İNV № 4702)

**Tarixi memarlıq abidələri**

- Sığınacaq (IV əsr) – Əliquluuşağı kəndi (İNV № 1449)
- Sığınacaq (IV əsr) - Balahəsənli kəndi (İNV № 1451)
- Sığınacaq (IV əsr) - Zor kəndi (İNV № 1452)
- Göy qala (V əsr) – Əliquluuşağı kəndi (İNV № 305)
- Qalalı qalası - Əliquluuşağı kəndi (İNV № 4698)
- Qalalı qalası (yeraltı keçidlə, V əsr) - Muradxanlı kəndi (İNV № 4699)
- Qız qalası – Əliquluuşağı kəndi (İNV № 305)



❖ **Laləzar körpüsü (1867-ci il) – Əliquluuşağı kəndi** (İNV № 306)



❖ **Hacı Bədəl körpüsü (XIX əsr) – Dondarlı kəndi (İNV № 4705)**

- Körpü (XIX əsr) – Mahmudlu kəndi (İNV № 4717)
- Qara-Qaya sığınacağı – Mahmudlu kəndi (İNV № 1453)
- Qalaça (son tunc, ilk dəmir dövrü) – Əliquluuşağı kəndi (İNV № 1448)
- Daş sənduqə – Məmər kəndi (İNV № 6170)
- Qalacıq qalası – Xocamusaqlı kəndi (İNV № 4707)
- Qədim daş qoç fiquru (XVI əsr) –Mahmudlu kəndi (İNV № 6169)
- Koroğlu qalaçası (son tunc, ilk dəmir dövrü) – Əliquluuşağı kəndi (İNV № 1447)
- Oğlan-Qız abidəsi – Dəmirçilər kəndi
- Qədim Haramı qəbiristanlığı (XIX əsr) – Əliquluuşağı kəndi

# ŞUŞA RAYONU







Ərazisi 0.29 min kv. kilometrdir. İnzibati rayon kimi 1930-cu ildə yaradılmış Şuşanın ərazisinə bir şəhər, bir qəsəbə və 29 kənd daxildir. Şəhər 8 may 1992-ci ildə işğal edilmiş və vəhşicəsinə dağıdılmışdır.

Təkcə Qarabağın və Azərbaycanın deyil, bütün Qafqazın gözəl guşələrindən biri Şuşa müdafiə məqsədilə tikilmiş qala-şəhər olmuşdur. Buna görə də təsadüfi deyil ki, bu gün el arasında qədim məkan “Şuşa qalası” kimi də tanınır. 1750-ci ildə Qarabağ xanlığının banisi Pənahəli xan Cavanşir indiki Şuşa şəhərinin yerləşdiyi yerdə - düşmən əlinin çatmayacağı dağ başında böyük qala divarları - istehkam tikdirmək qərarına gəlir. Əvvəllər Qarabağ xanının adına uyğun olaraq “Pənahabad” adlandırılan Şuşanın strateji baxımdan əlverişli yerdə yerləşməsi onu düşmən üçün sərt etmiş, şəhərin inkişafına və milli-mədəni abidələrin tikilməsinə zəmin yaratmışdır.

*Bu gün Şuşa Dövlət Tarix-Memarlıq Qoruğuna yüzlələrə tarixi abidəmiz daxildir. Lakin əfsuslar olsun ki, onların bir çoxu erməni vandalizminin qurbanına çevrilib.*

Qırxqız, Kirs, Murov, Bağqıran, Sarıbaba dağları ilə əhatələnən Şuşa dəniz səviyyəsindən 1400-1800 metr hündürlükdə yerləşir. Şuşa havasının təmizliyi və müalicəvi əhəmiyyəti baxımından Azərbaycanın şəfalı kurort-istirahət mərkəzlərindən hesab olunur.



Bu gün Şuşa Dövlət Tarix-Memarlıq Qoruğuna yüzlələrə tarixi abidəmiz daxildir. Lakin əfsuslar olsun ki, onların bir çoxu erməni vandalizminin qurbanına çevrilib.

## YUXARI GÖVHƏR AĞA MƏSCİDİ (İNV № 344)

**"Kitabi-tarixi Qarabağ" əsərinin müəllifi Mir Mehdi Xəzaninin yazdığına görə, hicri tarixi ilə 1182-ci ildə (miladi ilə 1768-69-cu il) Qarabağ hakimi İbarahimxəlil xan tərəfindən bina edilən məscid hicri 1281-ci ilində (miladın 1866-1867-ci illərində) mükəmməl şəkildə təmir olunmuşdur. Daxili sahəsi 558 kv. metrdir. Təxminən 30 metr hündürlüyündə qoşa minarəsi var.**





*Baharlının “Qarabağnamə”sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır.*



* * *

Baharlının “Qarabağnamə”sində deyilir ki, Şuşanın baş meydanında 1759-cu ildə Pənahəli xan tərəfindən qamışdan iki qapılı məscid tikilmiş, 1768-ci ildə isə onun yerində mərhum xanın oğlu İbrahimxəlil xan tərəfindən daha möhtəşəm məscid ucaldılmışdır. Təxminən 100 ildən sonra elə bu yerdə onun qızı Gövhər Ağanın tapşırığı və vəsaiti ilə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən daha bir məscid inşa edilmişdir. Buna qədər mövcud olmuş Cümə məscidi binasının görünüşü ilə o zaman Qafqaza səyahət edən rus rəssamı Vasili Vereşaqinin çəkdiyi şəkildən tanış ola bilərik. Rəssamın çəkdiyi şəkildəki məscid binası əzəmətlidir. Onun giriş hissəsi Səfəvi memarlığına xas olaraq həddən artıq böyük baştağdan qurulmuşdur. Baştağın üzərində dam örtüyü Avropa memarlığına məxsus ampir şəklində işlənmişdir. Bu məscid binasının yerində tikilən Yuxarı Gövhər Ağa məscidinin fasadı isə üç eyniölçülü tağla irəli çəkilərək binanın şimal, yəni ön hissəsi boyunca uzanan eyvan şəklində həll olunmuşdur. Yeni binada Qurani-Kərimdən ayələr, məscidin inşa tarixi və Gövhər Ağanın vəsiyyətnamələrini əks etdirən çoxlu daş kitabələrə rast gəlmək olar. Binanın ikinci mərtəbəsi və minarələrdəki ornament, eləcə də kitabələr məşhur Azərbaycan şairi və nəqqaşı Mir Möhsün Nəvvab tərəfindən işlənmişdir.

* * *

Səxavəti və xeyriyyəçiliyi ilə ad çıxaran xan qızı Gövhər Ağa məscidin bir hücrəsini mədrəsə etmiş, bura ibadətə gələn və ehtiyacı olanlara həftədə bir dəfə yardım, məsciddə Quran oxuyan və azan verən müəzzinlərə məvacib ayırmışdı. Gövhər Ağa vəfat edəndən sonra məscid həyətində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.

1992-ci ildən bu günə qədər gözəl Şuşanın digər tarixi-mədəni abidələri kimi, Yuxarı Gövhər Ağa məscidi də erməni işğalı altındadır.

*Gövhər Ağa vəfat edəndən sonra məscid həyətində dəfn edilmiş, az sonra isə nəşi Məkkəyə aparılaraq orada torpağa tapşırılmışdır.*

## SAATLI MƏSCİDİ (İNV № 355)

**Saatlı məscidi 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilmişdir. Şuşa şəhərinin tarixini tədqiq edən Çingiz Qacarın yazdığına görə, Saatlı məscidinin yerində 1759-cu ildə Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olmuş, məhz bu mədrəsədə böyük Azərbaycan şairi Molla Pənah Vaqif dərs demişdir.**



*bura Kərbəlayi Səfixan Qarabağinin tikdiyi son minarəli məscid olmuşdur.*

* * *

Məscid Şuşanın Saatlı məhəlləsində tikildiyi üçün belə adlanır. Saatlı məhəllə məscidi olsa da, şəhərin digər məhəllə məscidlərindən həm həcmi, həm memarlıq quruluşu, həm də dekorativ tərtibatı ilə seçilirdi. Tədqiqatçı Rizvan Qarabağinin yazdığına görə, bura Kərbəlayi Səfixan Qarabağinin tikdiyi son minarəli məscid olmuşdur. Sonrakı illərdə bu gözəl sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmamış, onları da-

mın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz etmişdir. Amma memarlıq üslubundakı belə kəskin dəyişikliyin nə ilə bağlı olması heç yerdə izah olunmur. Fasad yalnız divar və assimmetrik düzülüşə malik qapı və pəncərələrdən ibarətdir.



*Sonrakı illərdə bu gözəl sənətkarın tikdiyi məscidlərdə uca minarələr olmamış, onları damın üstündə güldəstə formalı kiçik şərəfələr əvəz etmişdir.*

* * *

Saatlı məscidinin interyer həlli bədii kamillik nümunəsi hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunlara minnətdar olaraq ibadət zalı üçnefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunmuşdur. Tək minarə binanın arxa tərəfində yerləşdirilmişdir. Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılmışdır.

*Belə ehtimal edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə ucaldılmışdır.*



* * *

İstedadlı memarın tikdiyi bütün binaların divarında belə bir söz yazılmışdır: “Qarabağdan olan Kərbəlayi Səfixan tərəfindən tikildi”. Əlbəttə, bu daş imzalar sonrakı dövrlər üçün sənəd kimi böyük əhəmiyyət daşıyır. Lakin bunsuz da memarın yaratdığı əsərlərə, məscidlərə, hətta, uzaqdan baxanda belə, onun kim tərəfindən tikildiyi məlum olur – memar Qarabaği.





## AŞAĞI GÖVHƏR AĞA MƏSCİDİ (İNV № 345)











**Dini-tarixi abidələri**

- Hacı Yusifli məscidi (XVIII) – Q.İsmayılov küçəsi (İNV № 5089)
- "Çöl Qala" məscidi (XVIII əsr) – Keçmiş Kuybışev küç. (İNV № 5103)
- Xoca Mərcanlı məscidi (XVIII əsr) – Sabir küç. (İNV № 5137)
- Quyuluq məscidi (XVIII əsr) – Keçmiş Şaumyan küç. (İNV № 5146)
- Seyidli məscidi (XVIII əsr) – Keçmiş Telman küç. (İNV № 5151)
- Məscid (XVIII əsr) – Keçmiş Əmiryan küç. Çuxurlu məhəlləsi (İNV № 5068)
- Mərdinli məscidi (XIX əsr) – A.Qaraşərov küç. (İNV № 5077)
- Culfalar məscidi (XIX əsr) – Ü.Hacıbəyov küç. (İNV № 5092)







- **Mamay məscidi (XIX əsr) – Q.Əsgərov küç. (İNV № 5166)**

- Köçərli məscidi (XIX əsr) – Keçmiş Sovet küç. (İNV № 5145)
- Malıbəyli məscidi (XIX əsr) – Malıbəyli kəndi (İNV № 5056)
- Alban kilsəsi (XIX əsr) – Qeybalı kəndi (İNV № 5059)
- Alban kilsəsi (XIX əsr) – Daşaltı kəndi (İNV № 5057)
- Kilsə qalıqları - Q.Pirimov küç. (İNV № 5041)
- Qız monastırı (XVIII-XIX əsrlər) – Şuşa şəhəri, keçmiş Qorki küç.
- Qazançı kilsəsi (XIX əsr) – Haqverdiyev küç. (İNV № 358)
- Qaybalı məscidi (XIX əsr) –
- Şirlan məscidi (XIX əsr) –
- Yuxarı məscid mədrəsəsi (XVIII əsr) – Vəzirov (İNV № 360)
- Mədrəsə (XVIII əsr) – Keçmiş Krupskaya küç. (İNV № 369)

**Ziyarətgahlar**

- Turbə - Şuşa şəhəri (İNV № 5042)
- Heydər türbəsi - Şuşa şəhəri (İNV № 340)
- Həzrət Əli kahası (Nəzir kahası)
- Həzrət Abbas şəfa ocağı
- Saqqaxana və Pirgah pirləri
- Seyid Mirfəsih türbəsi
- Ağadədəli məhəlləsində Mir Mehdi ağanın ocağı
- Çuxur məhəllədə iki minarəli şəfa ocağı
- Qasım ağanın ocağı
- Seyidli məhəlləsində Seyid Xəlil Seyid Əli oğlunun ocağı

**Tarixi memarlıq abidələri**

- Kurqan (tünc dövrü) – Şuşa şəhərinin şimal-qərbində (İNV № 1770)
- Şuşa və Şuşakənd daş qutusu qəbirləri (son tunc və ilk dəmir dövrü) - Şuşa şəhəri və Şuşa kəndinin yaxınlığında (İNV № 1771)
- Daş qutusu nekropolu (dəmir dövrü) - Qarabulaq kəndi (İNV № 1773)
- Nekropol (son tunc və ilk dəmir dövrü) – Dolanlar kəndi (İNV № 1774)

- Qala divarı (uzunluğu 8 kilometr, 1754-cü il) – Şuşa şəhəri (İNV № 337)
- Pənah xanın sarayı (XVIII əsr) – Şuşa şəhəri (İNV № 338)
- Qara Böyük Xanım bürcü (XVIII əsr) – Şuşa şəhəri (İNV № 339)
- Hacıqulların malikanəsi (XVIII əsr) – Şuşa şəhəri (İNV № 341)
- Natəvanın evi (XVIII əsr) – Şuşa şəhəri, keçmiş Lenin küç. (İNV № 342)
- Əsəd bəyin evi (XVIII əsr) – Şuşa şəhəri, keçmiş Voroşilov küç. (İNV № 343)
- İkimərtəbəli karvansara (XIX əsr) – Şuşa şəhəri, mərkəzi meydan (İNV № 346)
- Mehamandarovların malikanə kompleksi: məscid, kiçik yaşayış evi, böyük yaşayış evi (XVIII əsr) – Şuşa şəhəri (İNV № 347)
- İbrahim xanın bürcü (XVIII əsr) – Şuşa şəhəri (İNV № 348)
- İsa bulağı (XIX əsr) – Şuşa şəhərinin yaxınlığında (İNV № 349)
- İbrahim xanın qəsri (XVIII əsr) – Daşaltı kəndi (İNV № 350)





- **M.P.Vaqifin məqbərəsi (XX əsr) – Q.Quliyev küç. (İNV № 367)**



















# XOCALI RAYONU




Xocalı rayonu noyabr ayının 26-sı 1991-ci ildə yaradılmışdır. Sahəsi 0,936 min kvadrat kilometr olan rayona 1 şəhər, 2 qəsəbə, 50 kənd daxildir. Ağdam şəhərinin 18, Xankəndi şəhərinin 14 kilometrliyində, Qarabağ silsiləsində yerləşir.

Rayon ərazisi 1991-1992-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri Xocalını darmadağın etmiş, 7 min əhalisi olan şəhərdə genosid törətmiş, soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmişdir. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülmüşdür, onların 150-sinin taleyi bu gün də məlum deyildir. 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur.

Xocalı tarixən insanların yaşayış məskəni olmuşdur. Rayon ən qədim dini, memarlıq və mədəniyyət abidələri ilə zəngindir. Xocalının yaxınlığında bizim e. ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyəti abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid olunan dəfn abidələri - daş qutular, kurqanlar və daş kitabələr tapılmışdır. Rayon ərazisində arxeoloji abidələr - dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) də vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc və sümükdən hazırlanmış bəzək əşyaları, eləcə də, gildən bişirilmiş saxsı ev əşyaları və s. tapılmışdır.

**Tarixi-dini abidələri**



- Dairəvi məbəd (1356-1357-ci illər) – Xocalı şəhəri (İNV № 251)
- Alban məbədi (905-ci il) – Şuşa kəndi. (İNV № 255)
- Alban məbədi (1100-cü il) – Çanaxçı kəndi (İNV № 253)
- Alban məbədi (1065-ci il) – Çanaxçı kəndi (İNV № 254)
- Alban məbədi (1100-cü il) – Xaçmas kəndi (İNV № 257)
- Alban məbədi (1122-ci il) – Xansıx kəndi (İNV № 256)
- Alban məbədi (1202-ci il) – Armudlu kəndi (İNV № 258)
- Məbəd kompleksi (VII əsr) – Badara kəndi (İNV № 261)

- Kilsə (XIII əsr) – Xanabad kəndi (İNV № 265)
- Günbəz – Xocalı kəndi
- Qədim tarixə malik olan Alban abidələri – Xocalı kəndi
- Qədim Alban kilsəsinin qalıqları – Kərkicahan qəsəbəsi
- "Börgün qayasında olan kilsə" alban kilsəsi – Meşəli kəndi
- "Yeddi kilsə" Alban kisəsi – Meşəli kəndi
- "Durpasuda olan kilsə" Alban kilsəsi – Meşəli kəndi
- "Balaca suda olan kilsə" Alban kilsəsi – Meşəli kəndi
- "Əvəzin yurdunda olan kilsə" (Alban kilsəsi) – Meşəli kəndi

**Ziyarətgahları**

- Səkkizgüşəli günbəz ziyarətgahı (XIII əsr)
- Xocalı qəbiristanlığı e. ə. VIII-VII əsrlər
- Seyid Cəlal ağanın ocağı – Xocalı şəhəri
- Cahan nənə ocağı – Xocalı şəhəri
- Qaranın ocağı – Kərkicahan qəsəbəsi
- Darılı piri – Kosalar kəndi

**Tarixi memarlıq və arxeoloji abidələri**

- Daş qutu nekropolu (tunc dövrü) - Xocalı şəhəri, Əsgəran dağında (İNV № 1119)
- Nekropol (ilk və orta tunc dövrü) - Xankəndindən cənubda (İNV № 1120)
- Küp qəbirlər nekropolu (ilk orta əsrlər) - Xankəndinin kərpic zavodunun ərazisində (İNV № 1121)
- Kurqan (dəmir dövrü) - Xankəndinin yaxınlığında (İNV № 1122)
- Xankəndi kurqanları (tunc dövrü) - Xankəndinin şimalında (İNV № 1123)
- Xaçınçay nekropolu (ilk və orta tunc dövrü) – Seyidşən kəndindən şimal-şərqdə (İNV № 1124)
- Küp qəbirlər nekropolu (tunc dövrü) - Armudlu kəndindən 2 km. İlis kəndinə tərəf (İNV № 1125)



*Türbə (XIV əsr) - Xocalı şəhəri (İNV № 252)*

- Kurqan (tunc dövrü) - Armudlu kəndindən 15 km. İlis çayının sahilində (İNV № 1126)
- Daş qutu nekropolu (dəmir dövrü) – Armudlu kənd qəbiristanlığının yanında (İNV № 1127)
- Daş qutu nekropolu (dəmir dövrü) – Saruşen kəndi (İNV № 1129)
- Daş qutu nekropolu (dəmir dövrü) - Saruşen kəndi, dağın ətəyində (İNV № 1130)
- Köhnə qəbiristanlıq (tunc dövrü) - Çanaqçı kəndi (İNV № 1128)
- Qala (X əsr) – Maşxmaat kəndi (İNV № 259)
- Aslan qalası (IX əsr) – Anabert kəndi (İNV № 264)
- Qırxlar qalası (orta əsrlər) – Badara kəndi (İNV № 260)
- Qoç və yəhər şəkilli qəbir daşları – Xocalı kəndi





*Əsgəran qalası (XVIII əsr) – Əsgəran qəsəbəsi (İNV № 263)*







*Əsgəran qalası*









*Ulubaba monastrı*

*Ulubaba monastrı*




# XOCAVƏND RAYONU

Xocavənd rayonu Ağdam-Füzuli avtomobil yolu kənarında, dağətəyi düzənlikdədir. Relyefi əsasən dağlıq olan Xocavənd rayonu Dəniz səviyyəsindən təqribən 500 metrdən 2725 metrə (Böyük Kirs dağı) qədər hündürlükdə yerləşir.

1930-cu ildə yaradılan və 1991-ci ilə kimi "Martuni" adlandırılan Xocavənd rayonunun ərazisi alçaq dağlıq və düzənlikdən ibarətdir. Rayonunun ümumi sahəsi 1458 kvadrat kilometrdir. Rayon 2 şəhər tipli qəsəbə və 83 kənddən ibarətdir. Xocavənd və Qırmızıbazar qəsəbələri, Qaradağlı, Əmirallar, Muğanlı, Kuropatkin, Tuğ, Axullu, Salaketin, Günəşli, Xətai və başqaları rayonun iri yaşayış məntəqələrindəndir.

Azərbaycanı qədim yaşayış məskəni kimi dünyada tanıdan abidələrdən biri, dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilo-





metr cənubi-şərqində yerləşir. Həmin rayonun Mets-Tağlar kəndindən cənubda, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən, uzunluğu 22 metr, əhəng daşları oksfordkimeric dövrünə aid olan Tağlar mağarası tarixi abidə kimi xüsusi əhəmiyyətə malikdir.

Xocavənd 2 oktyabr 1992-ci il erməni silahlı birləşmələri tərəfindən işğal olunub. İşğal olunmuş Xocavənd rayonunda onlarla milli tarixi-dini abidəmiz düşmən tərəfindən mənəvi genosidə məruz qalmışdır.

**Tarixi-dini abidələri**

- Alban məbədi (1170-ci il) - Hadrut qəsəbəsi (İNV № 224)
- Alban məbədi (1147-ci il) – Məmmədzar kəndi (İNV № 225)
- Alban məbədi (1197-ci il) – Tuğ kəndi (İNV № 226)
- Qırmızı məbəd (1000-ci il) – Tuğ kəndi (İNV № 227)
- Alban məbədi (1094-cü il) – Traktik kəndi (İNV № 228)
- Alban məbədi (900-cü il) – Vəng kəndi (İNV № 229)
- Alban məbədi (1131-ci il) – Sakuri kəndi (İNV № 230)
- Alban məbədi (IV-VI əsrlər) – Süsənlik kəndi (İNV № 231)
- Alban məbədi– Süsənlik kəndi (İNV № 232)
- Alban məbədi (1635-ci il) – Tağaser kəndi (İNV № 234)
- Dini kompleks (XIII əsr) – Sur kəndi (İNV № 235)
- Alban məbədi (1241-ci il) – Mestağlar kəndi (İNV № 237)
- Alban məbədi (1236-cı il) – Güneyçartar kəndi (İNV № 238)
- Alban məbədi (995-ci il) – Qavaxan kəndi (İNV № 239)
- Alban məbədi (IV əsr) – Sos kəndi (İNV № 240)
- İki Alban məbədi (701-ci il) – Qatsi kəndi (İNV № 241)
- Alban məbədi (VIII əsr) – Qatsi kəndi (İNV № 242)
- Alban məbədi (V əsr) – Qatsi kəndi (İNV № 243)
- Kilsə (1270-ci il) - Qatsi kəndi (İNV № 244)
- Kilsə (XII əsr) - Qatsi kəndi (İNV № 245)

❖ **Amaras monastırı (IV əsr) – Maçqalaşen kəndi (İNV № 246)**







- Alban məbədi (XII əsr) – Sitoraşen kəndi (İNV № 247)
- Alban məbədi (675-ci il) – Tağavard kəndi (İNV № 248)
- Bağır xan məbədi (XII əsr) – Niki kəndi (İNV № 250)
- Alban kilsəsi (IV-V əsr) – Axullu kəndi
- Məbəd (XIV əsr) – Dolanlar kəndi (İNV № 4315)
- Məbəd – Ataqud kəndi (İNV № 4316)
- Kilsə (XVII əsr) –Tağavard kəndi (İNV № 4318)
- Məbəd (XVIII əsr) – Hadrut qəsəbəsi (İNV № 4319)
- Məbəd (XIII əsr) – Tuğ kəndi (İNV № 4320)
- Məbəd (1747-ci il) – Tuğ kəndi (İNV № 4321)
- Ağ kilsə (XVII əsr) – Vəng kəndi (İNV № 4323)
- Məbəd (1664-cü il) – Gəngər kəndi (İNV № 4324)
- Məbəd (XVII əsr) – Sakuri kəndi (İNV № 4325)
- Məbəd (XVII əsr) – Sur kəndi (İNV № 4326)
- Məbəd – Xsaberd kəndi (İNV № 4328)
- Məbəd – Tağaser kəndi (İNV № 4329)
- Kilsə (XX əsr) – Arakül kəndi (İNV № 4330)
- Məbəd (XVIII əsr) – Domi kəndi (İNV № 4331)
- Məbəd (XIX əsr) – Şaqah kəndi (İNV № 4332)
- Məbəd (1896-cı il) – Noraşen kəndi (İNV № 4333)
- Məbəd – Banazur kəndi (İNV № 4334)
- Məbəd (XIX əsr) – Kermaçuk kəndi (İNV № 4335)
- Məbəd (XIV əsr) – Qoçbəy kəndi (İNV № 4336)
- Məbəd – Çıraquz kəndi (İNV № 4337)
- Məbəd –Xırmançıq kəndi (İNV № 4338)
- Məbəd – Anaku kəndi (İNV № 4339)
- Məbəd (1698-ci il) – Ağcakənd kəndi (İNV № 4340)
- Məbəd (XVII əsr) – Zamzur kəndi (İNV № 4341)
- Məbəd – Məlikcanlı kəndi (İNV № 4342)
- Məbəd – Bulutan kəndi (İNV № 4343)
- Məbəd – Edilli kəndi (İNV № 4344)
- Məbəd – Düdükçü kəndi (İNV № 4345)
- Məbəd – Ağbulaq kəndi (İNV № 4346)
- Məbəd – Tək kəndi (İNV № 4347)
- Məbəd (XVII əsr) – Azıx kəndi (İNV № 4348)
- Məbəd (XIX əsr) – Bünyadlı kəndi (İNV № 4349)

- Məbəd – Daşbaşı kəndi (İNV № 4350)
- Məbəd (XIII əsr) – Dolanlar kəndi (İNV № 4351)
- Albanberd kilsəsi – Qarakənd kəndi (İNV № 4353)
- Məscid – Muğanlı kəndi
- Alban kilsəsi – Üçoğlan kəndi
- Albanberd kilsəsi – Qarakənd kəndi
- Alban kilsəsi – Qızılqaya ərazisi

**Ziyarətgahlar**

- Türbənin sərdabə hissəsi (XII-XIV əsrlər) – Dolanlar kəndi (İNV № 4352)
- Türbə (XVII əsr) – Xocavənd qəsəbəsi (İNV № 4317)
- Türbə - Xatek kəndi (İNV № 4354)
- Cəfat piri – Məstəqalar kəndi
- Şaqax piri – Şaqax kəndi
- Mir Mehdi Xəzanın türbəsi – Tuğ kəndi
- Cicim ocağı – Xocavənd qəsəbəsi.
- Pir – Qaradağlı kəndi
- Pir - Xocavənd kəndi
- Pir – Salatəkin kəndi
- Sitayiş ocağı – Salatəkin kəndi
- Bəhrəmli piri – Bəhrəmli ərazisi
- Niyyət piri - Bəhrəmli ərazisi
- Seyid Rza günbəzi (XIV əsr) – Muğanlı kəndi
- Rzaqulubəy günbəzi (XIV əsr) - Axullu kəndi
- Seyid Musa günbəzi – Nərgiztəpə ərazisi
- Aşıqlı qəbiristanlığında qoşa günbəz – Xocavənd kəndi

**Tarixi memarlıq abidələri**

- Nərgiztəpə yaşayış yeri (ilk və orta tunc dövrü) - Xocavənd şəhərindən şərqdə (İNV № 1116)
- Nekropol (son tunc və ilk dəmir dövrü) – Dolanlar kəndi (İNV № 1117)
- Tağlar mağarası (daş dövrü) – Tağlar kəndi (İNV № 1118)
- Qala - Sur kəndi (İNV № 236)

- Qala (III əsr) – Tağavard kəndi (İNV № 249)
- Ərgüşən qalası – Axullu kəndi
- Qədim yaşayış məskəni olan Azıx mağarası – Salatəkin kəndi
- Qala – Çanaxçı kəndi (İNV № 4327)



*Amaras qəsr kompleksi*



*Qarabulaq məbədi*



*Azıx mağarası*




# ZƏNGİLAN RAYONU

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı işğal etməsindən sonra yeni inzibati ərazi bölgüsü aparılmışdır. Bölgü nəticəsində Zəngəzur qəzası Gəncə quberniyasına tabe edilmiş, Sisyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın buraya daxil olunmuşdur. Zəngilanın ərazisi şərqdən Həkəri çayından Mehri dağ silsiləsinə qədər olan ərazini əhatə edir.

1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal etmişlər. Bu zaman bolşevik Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq Ermənistana birləşdirilmişdir. Nəticədə, qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalmışdır.

Zəngilan rayonu 1930-cu ildə yaradılmışdır. Rayonun sahəsi 707 kvadrat kilometrdir. Ərazisinə bir şəhər, 6 qəsəbə, 78 kənd daxildir. Zəngilan rayonu 29 oktyabr 1993-cü ildə təcavüzkar Ermənistan tərəfindən işğal olunmuşdur. İşğal nəticəsində rayon ərazisindəki onlarla milli və tarixi-dini abidə talan olunmuşdur.

Zəngilan rayonu Azərbaycanın özünəməxsus tarixi keçmişə malik bölgələrindəndir. Rayon ərazisindən axan Şərəkə çayının hövzəsində özünün tarixi ornamenti ilə seçilən onlarla türbə vardır. Bunlardan Zəngilan rayonunun Məmmədbəyli kəndində yerləşən səkkizguşəli Yəhya ibn Məhəmməd türbəsi (1304-1305) öz memarlıq-konstruktiv formasına görə seçilir. Türbənin ətrafında orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralıda Şeyxzadə Şeyx Abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin (759 h. - 1358 il) məzarı yerləşir. Türbənin ətrafında şeyxin davamçılarının pərakəndə şəkildə başdaşıları mövcuddur. Yazıların poliqrafik xüsusiyyətlərinə, bədii tərtibatına görə Şıxbaba Qədiriyyə sufi xanəgahının fəaliyyət dövrünü XIII-XIV əsrlərə aid etmək olar. Bu ərazilərdə XIII-XIV əsrə aid sənduqə, başdaşı formalı, qoç, at heykəlli qəbirdaşları ərəb, fars, Azərbaycan dilli yazılarla və müxtəlif relyeflərlə Azərbaycan xalqının həyatının, məişətinin müxtəlif tərəflərini əks etdirir, xalqın tarixinə, toponimikasına, xalq təbabətinə, etnogenez məsələlərinə aydınlıq gətirir, Azərbaycanın orta əsr mədəni həyatına dair bir sıra məsələləri işıqlandırır.

*Zəngilan rayonu Azərbaycanın özünəməxsus tarixi keçmişə malik bölgələrindəndir. Rayon ərazisindən axan Şərəkə çayının hövzəsində özünün tarixi ornamenti ilə seçilən onlarla türbə vardır.*

Məmmədbəyli kəndindəki türbə səkkizbucaqlı şəklində tikilib və yuxarısı piramidalı günbəzlə tamamlanır. Divarları xaricdən və daxildən yonulmuş daşla çox səliqəli formada üzlənib. Türbənin sərdabə hissəsi içəridən kvadrat planda tikilib. Türbənin giriş qapısının üstündə nəsx xətti ilə yazılmış ərəbcə kitabə var. Həmin kitabədə Qurandan ayə, türbənin kimə məxsus olduğu və nə vaxt tikildiyi qeyd edilib. Kitabədəki mətnə görə, bu, Yəhya ibn Məhəmməd əl-Həcc Seyid Əlinin türbəsidir.

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Deməli, Zəngilanın təqribən 1400 ilə yaxın yaşı var. Rayonun ərazisində Xudafərin su qovşağının yaradılması ilə əlaqədar olaraq, burada 1974-cü və 1979-cu illərdə arxeoloji qazıntı işləri aparılıb. Məlum olub ki, ərazi memarlıq abidələri ilə zəngindir. Bunlardan biri Şərifan kəndində yerləşən Şəhri-Şərifan (və ya Şəriban, Şabran) abidəsidir. Bu abidənin böyük bir hissəsini Həkərə çayı yuyub aparmışdır. Şəhər qalığının ərazisi 9 hektara yaxındır, təbii, coğrafi və strateji baxımdan əlverişli mövqedə yerləşib, qərbdən dağ silsiləsi, şərqdən Həkərə çayının sıldırım sahili ilə əhatə olunmuşdur. Aparılan tədqiqat zamanı şəhər ətrafında iki qəbiristanlığın olduğu müəyyən edilib. Onlardan biri şəhərin varlı əhalisinə məxsus sərdabə tipli qəbirlərdən ibarətdir. Bu qəbiristanlıq təqribən 1 km şimalda yüksək dağın döşündə salınıb. Onlar ağ daşla inşa edilib, əksər hallarda qapı üstü və ya mehrabvari hissədə həndəsi formada naxışlanıb. İkinci qəbiristanlıq isə şəhərin cənub-qərbində olub, üstü dirəklərlə örtülən qəbirlərdən ibarətdir. Hər iki qəbiristanlıqda dəfnetmə İslam şəriətinə uyğun aparılıb.

Şərifanda aparılan qazıntılar zamanı xeyli miqdarda maddi-mədəniyyət qalıqları aşkar edilib. Arxeoloji materiallara əsasən, şəhər tipli yaşayış məskəni olan Şərifan XIV əsrdə salınmış və XVII əsrə kimi burada intensiv yaşayış olmuşdur.

*XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub.*

**Tarixi-dini abidələri**

- İmam Hüseyn məscidi (XVII əsr) – Zəngilan şəhəri
- Məscid (XIX əsr) – Zəngilan kəndi (İNV № 5287)
- Məscid (XIX əsr) – Malatkeşin kəndi (İNV № 5288)
- Məscid (XIX əsr) – Qırıq Muşlan kəndi (İNV № 5289)

- Məscid (XIX əsr) – Muşlan kəndi (İNV № 5292)
- Məscid (XIX əsr) – Rəzdərə kəndi
- Alban kilsəsi –Xanazor kəndi
- Alban kilsəsi – Yeməzli kəndi

**Ziyarətgahları**





- **Səkkizguşəli türbə (XIV əsr) – Məmmədbəyli kəndi (İNV № 391)**

- Ziya Baba ocağı – Ağkənd kəndi
- Xanazur türbəsi – Bartaz kəndi
- Xanazor piri – Bartaz yaxınlığında
- Soltan Heydər piri – Bartaz dağında
- Günqışlaq piri – Günqışlaq kəndi
- İzzə piri – Hacıllı kəndi
- Hacallı (Hacıallı) günbəzi – Hacıllı kəndi

- Buqakar piri – Leyfaz kəndi
- Məlikli Hacı Mir Məhəmməd ocağı – Məlikli kəndi
- Veysin piri – Pirveyis kəndi
- Seyid Musa ocağı – Sobu kəndi
- Qaradağlı piri – Şəfibəyli kəndi
- Yal piri – Vejnəli kəndi
- Yel piri – Vejnəli kəndi
- Soltan ocağı – Yeməzli kəndi
- Şəhid Məhəmməd yeri – Yeməzli kəndi
- Dəvəcüneyt piri – Zəngilan şəhəri
- Məmməd bəyin türbəsi – Məmmədbəyli kəndi

**Tarixi memarlıq abidələri**

- Şərifan abidələri (IX-XVI əsrlər) – Şərifan kəndi (İNV № 1824)
- Şəhri Şərifan yaşayış yeri (orta əsrlər) – Hacallı kəndi (İNV № 6060)
- Ağca Aşıq yaşayış yeri (orta əsrlər) – Qumlaq kəndi (İNV № 6061)
- Qız qalası (orta əsrlər) – Qumlaq kəndi (İNV № 6062)
- Qəsr qalası (orta əsrlər) – Oxuçuçayın Araza töküldüyü yerdə (İNV № 6063)
- Sərdabə (XIII əsr) – Şərikan kəndi
- Sərdabə (XIV əsr) – Yenikənd kəndi
- Hacallı dairəvi bürcü (XIV əsr) – Hacallı kəndi (İNV № 5291)
- Körpü (XIX əsr) – Hacallı kəndi (İNV № 5290)
- Hacalı qülləsi (XIV əsr) – Məmmədbəyli kəndi (İNV № 1825)
- Nekropol (e.ə VI-IV əsrlər) – Quyudərə Xəştab kəndi (İNV № 1826)
- Küp qəbirlər (b.e.ə. IV-II əsrlər) – Yeməzli kəndi
- Koroğlu daşı (VII-VIII əsrlər) – Ağ oyuq düzü
- Bartaz Qız qalası (XIV əsr) – Bartaz kəndi
- Şərifan sərdabəsi (XII əsr) – Şərifan kəndi
- Tağlı körpüsü (XVI əsr) – Sobu kəndi
- Yəhya ibn Məhəmməd əl-Hoca məqbərəsi – Məmmədbəyli kəndi



## NAXÇIVAN MUXTAR RESPUBLİKASI, SƏDƏRƏK RAYONU

- Yaşayış yeri və qalası (e.ə. II minillik) – Kərki kəndi (İNV № 1955)
- Kərki nekropolu (e.ə. II minillik) – Kərki kəndi (İNV № 1956)

# QAZAX RAYONU






❖ **Məbəd (V-VIII əsrlər) – Yuxarı Əskipara kəndi (İNV № 281)**

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"

2. Azərbaycan Milli Ensiklopediyası. "Azərbaycan" cildi. Bakı, 2007.

3. "Azərbaycan – İslam mədəniyyətinin incisi" Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu, Mega basım, 2013.

4. Faiq İsmayılov, "Tarix və mədəniyyət abidələri; qorunması, istifadəsi və bərpası barədə təlimatlar", "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2013.

5. Faiq İsmayılov, "Məcburən ermənиləşdirilmə", Bakı, 2009.

6. Əziz Ələkbərli, "Qərbi Azərbaycan abidələri", Bakı, 2007.

7. Əliheydər Zülfüqarov. "Dövlət və din" ictimai fikir toplusu. Fevral 2015 tarixli 02 (31) sayı.

8. Hidayət Orucov, "Azərbaycanda din; ən qədim dövrdən bu günədək". Bakı, 2012.

9. Qurani-Kərim Məali, Azərbaycan dilinə tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev, İpək yolu nəşriyyatı, 2007.

10. İncil (Əhdi Cədid), Bibliya tərcümə institutu, 1993.

11. Nahid Məmmədov. Güllələnən abidələr: Şuşa. "Cəmiyyət və din" qəzeti. Bakı, 04 saylı, 28 may-03 iyun 2009-cu il tarixli nömrəsi.

12. Nahid Məmmədov. Güllələnən abidələr: Xocavənd. "Cəmiyyət və din" qəzeti. Bakı, 05 saylı, 04-10 iyun 2009-cu il tarixli nömrəsi.

13. Nahid Məmmədov. Güllələnən abidələr: Xocalı. "Cəmiyyət və din" qəzeti. Bakı, 06 saylı, 11-17 iyun 2009-cu il tarixli nömrəsi.

14. Nahid Məmmədov. Güllələnən abidələr: Laçın. "Cəmiyyət və din" qəzeti. Bakı, 07 saylı, 18-24 iyun 2009-cu il tarixli nömrəsi.

15. Nahid Məmmədov. Güllələnən abidələr: Kəlbəcər. "Cəmiyyət və din" qəzeti. Bakı, 08 saylı, 25 iyun-01 iyul 2009-cu il tarixli nömrəsi.

16. Nahid Məmmədov. Güllələnən abidələr: Cəbrayıl. "Cəmiyyət və din" qəzeti. Bakı, 09 saylı, 02-08 iyul 2009-cu il tarixli nömrəsi.

17. Nahid Məmmədov. Güllələnən abidələr: Ağdam. "Cəmiyyət və din" qəzeti. Bakı, 10 saylı, 09-15 iyul 2009-cu il tarixli nömrəsi.

18. Nahid Məmmədov. Güllələnən abidələr: Zəngilan. "Cəmiyyət və din" qəzeti. Bakı, 12 saylı, 23-29 iyul 2009-cu il tarixli nömrəsi.

19. Nahid Məmmədov. Güllələnən abidələr: Füzuli. "Cəmiyyət və din" qəzeti. Bakı, 14 saylı, 06-12 avqust 2009-cu il tarixli nömrəsi.

20. Nahid Məmmədov. Güllələnən abidələr: Qubadlı. "Cəmiyyət və din" qəzeti. Bakı, 15 saylı, 13-19 avqust 2009-cu il tarixli nömrəsi.

21. Rəşid Göyüşov, "Azərbaycanda xristian abidələri" Bakı, 1988.

22. www.az.wikipedia.org

23. www.youtube.com

24. www.echo.az

25. http://vandalism.preslib.az

26. http://www.scwra.gov.az

Nahid Məmmədov

**İŞĞAL ALTINDAKI TARİXİ-DİNİ ABİDƏLƏRİMİZ**

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Elnur ƏHMƏDOV
Bədii redaktor: Fəxri VƏLİYEV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 12.03.2015
Çapa imzalanmışdır: 23.04.2015
Nəşrin ölçüsü: 70x100 1/12
Fiziki çap vərəqi: 8,0
Sifariş: 038/15. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com

**"DİGİTALS MEDİA" ŞİRKƏTİNİN SİFARİŞİ İLƏ ÇAP OLUNUB.**